Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

6 MAY 2020-ci il

№ 72 (4203)

Qiyməti 40 qəpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# QAZAXISTANDA KADR İŞLAHATLARINDAN ERMƏNİSTANIN ÇIXARDIĞI İSTERİK ANTİ-AZƏRBAYCAN NƏTİCƏLƏRİ...

səh. 7

Dünya Qoşulmama Hərəkatında Azərbaycanın sədrliyindən hələ çox yeni tədbirlərin şahidi olacaq - Prezidentin məzmunlu anonsu...

səh. 8

Qoşulmayan ölkələr üçün Azərbaycanın koronavirusla mübarizə tədbirlərinin önəmi - Azərbaycan Prezidentinin təklifinə reaksiyalar...

səh. 3

Azərbaycan Qoşulmama Hərəkatının strukturunu təkmilləşdirir - Vahid Məlumat Bazası...

səh. 5

Ermənistan XİN-in "1991-94 və aprel 2016 bir daha olmayacaq" əminliyinin kökü - xalqı sakitləşdirmək, ya...

səh. 7

Bakı İrəvanı növbəti dəfə yerinə oturtdu - Ermənistan XİN rəhbərinin leksikonundakı yumşalma...

səh. 9

Koronavirus Azərbaycan və Ermənistan arasında daha bir mühüm fərqi üzə çıxardı - İrəvan xaricdəki vətəndaşlarına sahib çıxa bilmir...

səh. 6

Neft qiymətləri Azərbaycanın istədiyi komfort həddə çatır...

səh. 13

İctimai iaşədə yeni məcburi profilaktika qaydalarının pozulması böyük təhlükələrə yol açacaq...

səh. 15




## Son iki həftədə ilk dəfə yoluxma sayı sağalmaları üstələdi - karantin qaydaları yenidən sərtləşdirilə bilər... Operativ Qərargah son xəbərdarlığı etdi

səh. 11-12





Prezident Əliyevin koronavirusa qarşı BMT konfransı təklifi dünyanı vahid hədəfə yönəldəcək...

səh. 3

Qoşulmayanların Bakı konfransının məşhur 12-ci maddəsi - Azərbaycan müstəqil və prinsipial xarici siyasətə sadiqliyini bir daha göstərdi...

səh. 4

Korrupsiya üstündə tutulmuş icra başçısının həbsinə Biləsuvar deputatından qəribə reaksiya və son düzəlişi...

səh. 10

"Azərbaycan Prezidentinin videokonfransdakı təşəbbüsləri yeni səmərəli beynəlxalq əməkdaşlıq platformalarının yaradılması prosesinin başlanğıcıdır"

səh. 5



Qoşulmayanların Bakı konfransı ÜST-nin koronavirus əleyhinə fəaliyyətinə qlobal dəstəyi daha da gücləndirdi

səh. 4



Marketlərdə xərclədiyimiz pulların bir hissəsi geri qaytarılacaq - kartla ödəyənlər çox, nağd ödəyənlər az alacaq...

səh. 2



İctimai nəqliyyatda təsdiqlənmiş bu profilaktika qaydalarına hamı əməl etsə - ikinci dalğaya qarşı tutarlı üsul...

səh. 14



Azərbaycanın bölgələrində kazinolar? - Milli Məclisin deputatının təklifi necə qarşılanır...

səh. 15





## Azərbaycanda daha 76 nəfərdə koronavirus aşkarlandı, 28 nəfər sağaldı

**Azərbaycan Respublikasında 76 yeni koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb, 28 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan baki-xeber.com-a bildirilib ki, hazırkı dövrədək ölkəmizdə 2060 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1508 nəfər müalicə olunaraq sağalıb, 26 nəfər vəfat edib, 526 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 21 nəfərin vəziyyəti ağır, 27 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 164.481 test aparılıb.

## Biləsuvar İcra Hakimiyyəti qarşısında insidentlə bağlı cinayət işi başlandı, 7 nəfər saxlandı

**Mayın 4-ü saat 11 radələrində bir qrup şəxs xüsusi karantin rejimi qaydalarını pozaraq sosial yardım almaq məqsədilə Biləsuvar rayon İcra Hakimiyyətinin inzibati binasının qarşısında toplaşıblar.**




Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun Mətbuat Xidmətlərindən baki-xeber.com-a daxil olan məlumatda bildirilib ki, ərazidə xidmətdə olan polis əməkdaşları həmin şəxslərlə profilaktik və izahedici söhbətlər apardıqdan sonra onlar ərazini tərk ediblər. Lakin icazəsiz toplantının bir neçə üzvü ictimai qaydanın pozulmasına yönəlmiş hərəkətlərini davam etdirib, onları intizama dəvət edən polis əməkdaşlarının qanuni tələblərinə tabe olmayaraq müqavimət göstəriblər.

Görülmüş tədbirlərlə hüquqazidd hərəkətlərin və asayişin kütləvi şəkildə pozulmasının qarşısı alınaraq 7 nəfər saxlanıb. Onlardan iki nəfəri barəsində rayon prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 221-ci (Xuliqanlıq) və 315-ci (Hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə) maddələri ilə cinayət işi başlanıb, digər 5 nəfər barəsində isə İnzibati Xətalar Məcəlləsinin 510-cu (Xırda xuliqanlıq) maddəsi ilə inzibati protokollar tərtib edilib.

Hazırda istintaq araşdırmaları davam etdirilir.

# Azərbaycan XİN Qazaxıstanla sərhəddə öldürülən azərbaycanlı barədə məlumat yaydı

**Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Qazaxıstanla sərhəddə öldürülən azərbaycanlı barədə məlumat yayıb. XİN-dən baki-xeber.com-a verilən məlumatda deyilir:**



"Bu ilin 30 aprel tarixində Xəzərə dənizində Qazaxıstan Respublikası Milli Təhlükəsizlik Komitəsinin Sərhəd Xidmətinin Sahil Mühafizəsinin əməkdaşları tərəfindən Azərbaycan Respublikasının vətəndaşlarının saxlanılması zamanı silah tətbiq etməsi nəticəsində həyatını itirmiş Qəhrəman İbrahimovun nəşi 5 may tarixində, ölkəmizin diplomatik nümayəndəliyinin iştirakı ilə Qazaxıstan Respublikasının Milli Təhlükəsizlik Komitəsinin Manqistau əyaləti üzrə Sərhəd Xidmətininin hərbi gəmisi ilə Azərbaycan tərəfinə təhvil verilməsi məqsədilə yola düşüb. Vətəndaşımızın nəşi Xəzər dənizinin ümumi su məkanında bu gün Azərbaycan Respublikasının Sərhəd Xidmətinin hərbi gəmisinə təhvil veriləcək. Azərbaycan ərazisinə gətirildikdən sonra vətəndaşın nəşi ailəsinə veriləcəkdir.

Qeyd etmək istərdik ki, Qazaxıstan Respublikasının Xarici İşlər Nazirliyindən Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə daxil olmuş notada baş vermiş insident zamanı həyatını itirmiş Azərbaycan vətəndaşı Qəhrəman İbrahimovun ailəsinə başsağlığı bildirilir, eləcə də Qazaxıstan tərəfindən sözügedən insidentin hərtərəfli və obyektiv araşdırıldığı və nəticələr barədə Azərbaycan tərəfinin məlumatlandırılacağı qeyd olunur".

# Marketlərdə xərclədiyimiz pulların bir hissəsi geri qaytarılacaq - kartla ödəyənlər çox, nağd ödəyənlər az alacaq...

**Xəbər verildiyi kimi, ticarət və iaşə obyektlərində ödənişlər zamanı tutulan əlavə dəyər vergisini (ƏDV) geri almaq mümkün olacaq. Qeyd edək ki, qanunun bu tələbinin həyata keçirilməsi üçün proses tamamlanıb. Məlumat üçün bildirək ki, müştəri ƏDV-ni geri ala bilmək üçün ilk öncə edvgerial.az saytından qeydiyyatdan keçməlidir.**

ƏDV-dən geri ödənilən vəsaitlərin nə zaman qaytarılması barədə fikir bildirən İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin baş idarə rəisi Elçin Məmmədov deyib ki, bu sahədə görülən işlər çərçivəsində texniki və hüquqi məsələlərin həlli tamamlanmaq üzrədir. Artıq müvafiq dövlət qurumları ilə razılaşdırılmaqla ƏDV-nin müəyyən hissəsinin qaytarılması ilə bağlı prosesə cəlb ediləcək müvəkkil bank müəyyən edilib - bu, "Kapital Bank"dır: "Həmçinin, alınmış mallara görə ödənilmiş ƏDV-nin qaytarılması üçün istehlakçıların müraciətlərinin qeydiyyata alındığı informasiya sistemi olan xüsusi portalın (www.edvgerial.az) hazırlanması ilə bağlı işlər başa çatdırılıb və ƏDV-nin müəyyən hissəsinin qaytarılma mexanizmi müəyyən edilib. Qaydalara əsasən, ƏDV-nin müəyyən hissəsinin qaytarılması zamanı 3 məqama diqqət yetirilməlidir. İlk növbədə, istehlakçı, yəni alış-veriş edən və ya xidmətdən yararlanan tərəf fiziki şəxs olmalıdır. İkincisi, satıcı və ya xidmət göstərən tərəf mütləq ƏDV ödəyicisi olmalıdır. Digər məqam isə satıcının yeni nəsil kassa aparatlarından istifadə etməsidir. ƏDV-in bir hissəsinin qaytarılması yalnız yeni nəsil kassa aparatlarının tətbiq edildiyi obyektlərdə mümkündür".



ƏDV-nin qaytarılmasının əhəmiyyəti barəsində danışan Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Maliyyə və maliyyə institutları kafedrasının professoru Elnur Sadıqov bildirdi ki, ƏDV ilə bağlı görülən tədbirlərdə bir sıra önəmli məqamlar var: "Bu bir tərəfdən dövriyyədə olan artıq pul kütləsinin yenidən dövlətə qayıtması deməkdir. Digər tərəfdən, həmin vəsaitlərin yığılması o qədər də əhəmiyyətli hesab edilmir. Bu, vətəndaşlara həmin pullardan istifadəyə imkan yaradır və nəticə etibarilə, bu, dövlətin vətəndaşlara növbəti maliyyə yardımı kimi qiymətləndirilə bilər. Dünya ölkələrində də belə bir təcrübə var, ancaq bu addımlar daimi xarakter daşımır".

İqtisadçı-ekspert Natiq Cəfərli qeyd etdi ki, ƏDV qaytarılma qaydaları ancaq iri marketlər şəbəkəsinin maraqlarına uyğundur: "Bu qaydaların indiki şəkildə tətbiqi kiçik-orta dükanların tamam sıradan çıxmasına səbəb olacaq. Hər bir halda, kiçik-orta marketlər üçün də hökumət tərəfindən təşviq addımları mütləq atılmalıdır. Qeyd edim ki, bu sahədə müəyyən boşluqlar var. Məsələn, mən bir ƏDV ödəyicisi olan iri mağazadan 1180 manata palto alıram, nağd ödəniş edirəm, çeki öz kabinetimə daxil edib 18 manatı geri alıram. Paltonu asıram evdən, 1 həftədən sonra bir daha yeni gözlə mala baxıram və bəyənmirəm, çeki və malı götürüb gedirəm dükana, qanuna görə, 14 gün ərzində malı qaytarma hüququm var - paltonu qaytarıb 1180 manatımı geri alıram. Bəs, o zaman mexanizm necə çalışacaq?! Qaydalarda bu məsələ yoxdur, boşluq var".

*Günel CƏLİLOVA*

# Prezident Əliyevin koronavirusa qarşı BMT konfransı təklifi dünyanı vahid hədəfə yönəldəcək...

## *Elşən Həsənov: "Azərbaycan qlobal miqyasda da koronavirusa qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfəsini verir"*

**Məlum olduğu kimi, Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirilib.**

Prezident İlham Əliyev pandemiya şəraitində Azərbaycanda iqtisadi sabitliyi təmin etmək, məşğulluqla bağlı problemləri həll etmək və makroiqtisadi və maliyyə sabitliyini təmin etmək üçün görülən işlərdən də danışıb, bu məqsədlə 3.5 milyard manat məbləğində sosial-iqtisadi dəstək paketinin qəbul olunduğunu bildirib. Sammitdə dövlət başçısı qlobal həmrəyliyin nümunəsi kimi Qoşulmama Hərəkatının üzv ölkələri olaraq BMT Nizamnaməsində nəzərdə tutulan Baş Assambleyanın COVID-19 pandemiyasına həsr olunmuş dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifini irəli sürüb. Sonra BMT Baş Assambleyasının 74-cü sessiyasının prezidenti Ticani Məhəmməd-Bande çıxış edərək deyib ki, heç bir ölkə qarşıya çıxan bu çətinliyi, bu maneəni təkbaşına aradan qaldıra bilməz. Biz BMT olaraq çox böyük məmnunluqla bu kimi təşəbbüsləri dəstəkləyirik və istəyirik ki, COVID-19 virusunun yayılmasının qarşısını alaq. Biz istərdik ki, həmçinin bütün dövlətlər, millətlər arasında olan bərabərsizlik aradan qaldırılsın.

Azərbaycan Prezidentinin BMT Baş Assambleyasının pandemiyaya həsr olunmuş dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi ilə bağlı irəli sürdüyü təklifi necə dəyərləndirmək olar? Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Zirvə görüşü Azərbaycanın dünyadakı əhəmiyyətini və beynəlxalq öhdəliklərə çox ciddi, məsuliyyətlə yanaşdığını bir daha ortaya qoydu:"Sözün həqiqi mənasında Azərbaycan miqyası ilə müqayisədə həddən artıq böyük təşəbbüslər irəli sürür və onları məntiqli sonluqla tamamlamağı bacarır. Biz adətən bəşəri əhəmiyyət daşıyan bu tip çağırışların, təşəbbüslərin daha çox dünyanın nəhəng ölkələri tərəfindən irəli sürüldüyünü görmüşük. Fikir verin, elə bizə yaxın olan MDB məkanını əhatə edən ölkələrdə heç analoji addımlar atan ölkə varmı? Biz şahidi olduq ki, hətta




Avropa İttifaqı kimi qurum öz yaxınlığında olan ölkələrə belə yardım göstərməkdən boyun qaçırdı. Bu xüsusda Aİ ilə İtaliya arasında yaşananları misal çəkə bilərik. Bizim Qoşulmama Hərəkatına sədrliyimiz həm də bir nümunə oldu. Sədrlik edən ölkə kimi yaxamızı nədənsə kənara çəkmədik. Quruma rəhbərlik edən ölkə kimi gördük ki, irəli sürdüyümüz təşəbbüs və təkliflərimiz yüksək səviyyədə dəstəklənir və təqdir olunur. Qoşulmama Hərəkatına üzv ölkələrin bir-birinin problemlərini anlayışla qarşılaması, həmrəylik nümayiş etdirməsi və çoxtərəfli əməkdaşlığa üstünlük verməsi böyük əhəmiyyət kəsb edir. Qlobal pandemiya şəraitində ölkələr və beynəlxalq təşkilatlar arasında həmrəylik və əməkdaşlıq xüsusilə aktualdır. Bu baxımdan da ölkə başçısının BMT-nin xüsusi sessiyasının keçirilməsi ilə bağlı irəli sürdüyü təkliflə Azərbaycan nəinki milli səviyyədə COVID-19-la mübarizədə səmərəli tədbirlər görür, eyni zamanda, regional və qlobal miqyasda da koronavirusa qarşı həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə əhəmiyyətli töhfəsini verir".

***Məhəmmədəli QƏRİBLİ***

# Qoşulmayan ölkələr üçün Azərbaycanın koronavirusla mübarizə tədbirlərinin önəmi - Azərbaycan Prezidentinin təklifinə reaksiyalar...

## *Rəsul Cahangirli: "Həmin ölkələr Azərbaycanın təcrübəsindən faydalansalar, bu sahədə effektiv nəticələr əldə edə bilərlər"*

**"Azərbaycan koronavirus xəstələrinin müalicəsi sahəsində öz təcrübəsini Qoşulmama Hərəkatının digər üzv dövlətləri ilə bölüşməyə və bu sahədə əməkdaşlığa hazırdır". Bunu Prezident İlham Əliyev Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşündəki giriş nitqində söyləyib.**



Ölkə başçısının sözlərinə görə, Azərbaycan koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üçün vaxtında çevik və zəruri qabaqlayıcı tədbirlər həyata keçirib: "Mənim sərəncamımla ilin əvvəlində Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılmışdır. Pandemiya dövründə bizim üçün prioritet məsələ insanların sağlamlığı və onların sosial müdafiəsinin təmin edilməsidir. Ölkə ərazisində keçirilməli olan bütün kütləvi tədbirlər təxirə salınmış və ya ləğv edilmişdir. Mart ayının 3-dən etibarən ölkə üzrə bütün təhsil müəssisələrində tədris prosesi tədricən dayandırılmışdır. Martın 14-dən etibarən bir sıra sosial təcrid tədbirlərini əhatə edən xüsusi rejim, martın 24-dən isə xüsusi karantin rejimi tətbiq edilmişdir".

Prezident onu da qeyd edib ki, həyata keçirilən bütün tədbirlər nəticəsində kütləvi yoluxma hallarının qarşısı alınıb: "Son üç həftə ərzində ölkəmizdə xəstəliyə yoluxanların sayı ilə sağalanların sayı arasındakı dinamika müsbətdir. Pandemiya dönəmində biz bir daha həkimlərimizin peşəkarlığının şahidi olmuşuq. Azərbaycan koronavirus xəstələrinin müalicəsi sahəsində öz təcrübəsini Qoşulmama Hərəkatının digər üzv dövlətləri ilə bölüşməyə və bu sahədə əməkdaşlığa hazırdır".

Görünən odur ki, Azərbaycanın bu sahədə əldə etdiyi təcrübədən Qoşulmama Hərəkatının

> *"Görülən qabaqlayıcı tədbirlər sayəsində virusun geniş yayılmasına imkan verilmədi"*

üzvləri istifadə etsə, daha səmərəli nəticələr əldə edə bilərlər.

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirli hesab edir ki, Azərbaycan bir sıra ölkələrlə müqayisədə daha səmərəli nəticələr əldə edib: "Məsələ ondadır ki, görülən qabaqlayıcı tədbirlər sayəsində virusun ölkədə geniş yayılmasına imkan verilmədi. Bunun nəticəsidir ki, əhalinin sayına görə baxanda Azərbaycanda koronavirusa yoluxanların sayı elə də çox deyil. Azərbaycanda koronavirus xəstələrinin müalicəsi üçün xüsusi xəstəxanalar ayrılıb. Virusun diaqnostikası, müalicəsi üçün zəruri olan laborator testlər, ən müasir tibbi avadanlıq və ləvazimatlar ölkəyə gətirilib. Sistemli olaraq bu istiqamətdə işlər davam etdirilir.

Bütün bu kompleks işlərin nəticəsidir ki, Azərbaycanda sağalan xəstələrin sayı sürətlə artır. Qoşulmama Hərəkatının üzvləri arasında elə ölkələr var ki, orada sosial-iqtisadi inkişaf aşağı səviyyədədir. Bəzi ölkələrdə tibbi imkanlar məhduddur, ya da müasir dövrün tələblərinə cavab vermir. O baxımdan hesab edirəm ki, həmin ölkələr Azərbaycanın koronavirus xəstələrinin müalicəsi sahəsində təcrübəsindən faydalansalar, bu sahədə effektiv nəticələr əldə edə bilərlər".

***Vidadi ORDAHALLI***

**Məlum olduğu kimi, mayın 4-də Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə keçirilmiş Zirvə görüşünün yekununda Bəyannamə qəbul edilib.**

# Qoşulmayanların Bakı konfransının məşhur 12-ci maddəsi - Azərbaycan müstəqil və prinsipial xarici siyasətə sadiqliyini bir daha göstərdi...

## *Rasim Quliyev: "Bakı növbəti dəfə əks qütblərin birləşdiricisi rolunda çıxış etdi"*



18 bənddən ibarət olan Bəyannamənin 12-ci bəndi xüsusilə diqqəti cəlb edir. Həmin bənddə deyilir:"Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və beynəlxalq hüquqa zidd olaraq Hərəkata üzv dövlətlərə qarşı tətbiq olunan birtərəfli məcburiyyət tədbirlərinin elan olunması və tətbiq edilməsini kəskin şəkildə pisləyir, beynəlxalq hüquqa uyğun olaraq belə tədbirlərdən zərər çəkən dövlətlərə dəstəyimizi ifadə edir və beynəlxalq ictimaiyyəti COVİD-19 pandemiyasına milli cavabların səmərəliliyini təmin etmək məqsədilə Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi və ya beynəlxalq hüququn prinsipləri ilə ziddiyyət təşkil edən belə tədbirlərin istifadəsinin ləğv edilməsi istiqamətində təcili və səmərəli tədbirlərin qəbul edilməsinə çağırırıq".

Qəbul edilən bu bənd Azərbaycanın həqiqətən müstəqil siyasət aparmasının əlaməti sayıla bilərmi? "Resurs" Analitik İnformasiya Mərkəzinin sədri Rasim Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bir mötəbər quruma rəhbərlik etmək və dünyanın əksər ölkələrində ciddi fəsadlar törədən pandemiyaya qarşı mübarizədə bütün dövlətləri birləşdirməyə çalışmaq Azərbaycanın humanist siyasətə sadiq olduğunun əyani göstəricisidir:" Prezident İlham Əliyevin təşəbbüsü ilə keçirilən Zirvə görüşündə bütün bu və digər mühüm məsələlərə toxunuldu və vəziyyətdən birlikdə çıxış yoluna aydınlıq gətirildi. Dövlət başçısı ölkəmizdə pandemiyaya qarşı aparılan mübarizə barədə qurumun üzvlərinə ətraflı məlumat verdi. İlham Əliyevin pandemiyaya qarşı mübarizədə Azərbaycan modelinin müsbət nəticələri barədə danışmaqla bu təcrübəni digər ölkələrlə bölüşməyə hazır olduğunu bildirməsi Qoşulmama Hərəkatına üzv ölkələr tərəfindən son dərəcə yüksək səviyyədə qarşılandı. Məhz bu səbəbdən də Qoşulmama Hərəkatının Təmas Qrupunun onlayn səviyyəli Zirvə görüşündə qəbul edilən birgə bəyannamədə Prezident İlham Əliyevin fəaliyyəti xüsusilə vurğulandı. Bəyannamədə qəbul edilən bəndlərdən görürük ki, nəinki normal dünya düzənində, hətta qlobal pandemiyanın yaratdığı mürəkkəb tarixi şəraitdə, dünya ölkələrinin öz sərhədləri daxilində mürəkkəb çağırışlarla rastlaşdığı bir zaman kəsiyində Bakı növbəti dəfə əks qütblərin birləşdiricisi rolunda çıxış etdi.

Eyni zamanda, dediyiniz bəndin tələblərindən görünür ki, ölkəmiz həqiqətən də müstəqil siyasət yürüdən ölkədir. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə və beynəlxalq hüquqa zidd olaraq Hərəkata üzv dövlətlərə qarşı tətbiq olunan birtərəfli məcburiyyət tədbirlərinin pislənməsi bir daha sübut edir ki, ölkəmiz bəşəri problemlərin həlli istiqamətində də çəkinmədən öz mövqeyini ifadə edir".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Məlum olduğu kimi, mayın 4-də Qoşulmama Hərəkatının sədri, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirilib.**

# Qoşulmayanların Bakı konfransı ÜST-nin koronavirus əleyhinə fəaliyyətinə qlobal dəstəyi daha da gücləndirdi

## *Vüqar Rəhimzadə: "...18 maddənin hər birində də birlik, həmrəylik çağırışı özünün aydın ifadəsini tapıb"*




Bir sıra dövlət və hökumət başçılarının iştirak etdiyi sözügedən Zirvə görüşündə yekun bəyanat qəbul edilib. Bakı videokonfransının bəyannaməsi hüquq və ədalət prinsiplərini tam olaraq əks etdirib və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) koronavirus əleyhinə fəaliyyətinə qlobal dəstəyi daha da gücləndirib.

Mövzunu şərh edən "İki Sahil" qəzetinin baş redaktoru, tanınmış siyasi icmalçı Vüqar Rəhimzadə "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan pandemiya dövründə daim ÜST-lə əməkdaşlıq edib. Onun sözlərinə görə, pandemiyanın ilkin yayıldığı dövrdə pandemiya ilə mübarizəyə görə Azərbaycanın ÜST-ə maliyyə yardımı etməsi, sonrakı mərhələdə digər istiqamətdə dəstək verməsi, ümumiyyətlə, koronavirusla mübarizədə ÜST-in tövsiyələrini əsas götürməsi bu qurumla Azərbaycan arasında qarşılıqlı əməkdaşlığın daha da sıxlaşmasına dəlalət edən amillərdir: "Təbii ki, Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi və təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşündə qəbul edilən bəyannamə ÜST-in mövqelərinin daha da güclənməsinə səbəb oldu. Bu həm də ÜST-in nüfuzunun dərinləşməsinə, kifayət qədər möhkəmlənməsinə töhfə verdi. Burada qarşılıqlı münasibətlər və əlaqələr öz bəhrəsini verir və bundan sonra da verəcəyinə inanıram. Bilirsiniz ki, Azərbaycan pandemiyaya qarşı mübarizədə ilk günlərdən Ümumdünya Səhiyyə Təşkilatı ilə səmərəli əməkdaşlıq edir. Məhz bu birlik, əməkdaşlıq sayəsində görülən işlər daim qurumun rəsmiləri tərəfindən yüksək dəyərləndirilib, Azərbaycanın pandemiyadan az itki ilə çıxan ölkə olacağı böyük əminliklə qeyd edilib".

V.Rəhimzadə, həmçinin, qeyd etdi ki, COVID-19 qlobal pandemiyası bütün dünya dövlətlərinin iqtisadiyyatına, xüsusilə insanların sağlamlığına mənfi təsir göstərir. "Təbii ki, heç bir ölkə bundan sığortalanmayıb. Prezident İlham Əliyev Qoşulmama Hərəkatının Təmas Qrupu formatında Zirvə görüşündə bu reallığı bir daha diqqətə çatdırdı ki, qarşılıqlı dəstək, özünə qapanmama və yalnız birgə səylərlə COVID-19-a qalib gələ bilərik".

*"Bu həm də ÜST-in nüfuzunun dərinləşməsinə, kifayət qədər möhkəmlənməsinə töhfə verdi"*

V.Rəhimzadənin sözlərinə görə, Qoşulmama Hərəkatı Birləşmiş Millətlər Təşkilatına üzv olan dövlətlərin üçdə ikisini özündə birləşdirir, bu halda hər bir ölkənin ortaya qoyduğu yanaşmanın mübarizənin effektliliyində rolu aydın görünür.

V.Rəhimzadə, həmçinin, bildirdi ki, Azərbaycanın ötən il qurumun XVIII Zirvə görüşünə evsahibliyi etməsi, 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrliyi üzərinə götürməsi, eyni zamanda, dünyanı bürüyən pandemiyaya qarşı mübarizənin gücləndirilməsində beynəlxalq birliyin həmrəyliyinin önəmini nəzərə alaraq, qurumun Təmas Qrupu formatında videokonfrans vasitəsilə "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşünün keçirilməsi təşəbbüsü ilə çıxış etməsi bir daha ölkəmizin dünyanı narahat edən hər bir məsələyə uyğun addımlar atdığını, səylərin birləşdirilməsinə nail olduğunu təsdiqləyir: "COVID-19-a cavab olaraq Qoşulmama Hərəkatının Təmas Qrupunun onlayn səviyyəli Zirvə görüşünün Bəyannaməsində əks olunan 18 maddənin hər birində də birlik, həmrəylik çağırışı özünün aydın ifadəsini tapıb.

Bəyannamədə xüsusi vurğulanır ki, bəşəriyyət üçün ciddi problem olan, birlik, həmrəylik və yenilənmiş çoxtərəfli əməkdaşlığa əsaslanmaqla qlobal reaksiya tələb edən COVID-19-un sürətlə yayılmasından ciddi narahatlıq ifadə edərək, Birləşmiş Millətlər Təşkilatının üzv dövlətlərini milli, regional və beynəlxalq səviyyələrdə bu bəlaya qarşı mübarizə aparmaq istiqamətində əməkdaşlıqlarını möhkəmləndirməyə çağırır".

***İradə SARIYEVA***

# Aydın Quliyev: "Azərbaycan Prezidentinin videokonfransdakı təşəbbüsləri yeni səmərəli beynəlxalq əməkdaşlıq platformalarının yaradılması prosesinin başlanğıcıdır"

**Pandemiya əleyhinə videokonfrans təşəbbüsü Azərbaycanın dünyada sülh və təhlükəsizliyə real töhfələr vermək iradəsinin növbəti parlaq ifadəsi oldu. Bunu baki-xeber.com-a eyniadlı saytın və qəzetin baş redaktoru, politoloq Aydın Quliyev deyib.**



Azərbaycan Prezidentinin hər bir situasiyada unikal təşəbbüslərlə çıxış etməsinə diqqət çəkən politoloq daha sonra bildirir:

"Mübahisəsiz faktdır ki, başqa bütün ölkələr virusla mübarizənin yalnız daxili siyasət müstəvisindəki üsulları üzərində düşündüyü halda, Azərbaycan mübarizənin həm də beynəlxalq əməkdaşlıq formatları çərçivəsində yeni imkanların fəal axtarışlarındadır və çox səmərəli formalar taparaq həyata keçirir. Əvvəlcə türk dövlətlərinin, ardınca isə Qoşulmama hərəkatının Təmas Qrupunun zirvə konfransını təşkil etmək bir daha sübut etdi ki, ölkəmiz beynəlxalq görüş formatlarının yaradılmasında və həyata keçirilməsində böyük təcrübəyə və gücə malikdir. Ölkəmizin sülhsevər və bəşəri dövlətçilik prinsiplərini həqiqətən daşıdığının nümayişi baxımından "Koronavirusla mübarizə videokonfransları" müstəsna əhəmiyyətə malikdir". A.Quliyev bildirir ki, bəşəriyyətin koronavirusa tam qalib gələcəyi şübhəsizdir:"Bu qələbəyə bütün dövlətlərin töhfə payının isə heç də bərabər olmayacağı indidən məlumdur. Azərbaycanın dünya üzrə qorxulu virusla mübarizəyə malik olduğu bütün resurslarla dəstək verdiyi göz qabağındadır. Azərbaycan koronavirusla ümumdünya mübarizə işinə misilsiz töhfələr verir. Ölkəmizin adı dünyanın pandemiyalarla mübarizə tarixinə ayrıca və bənzərsiz məzmunla düşdü. Azərbaycan Prezidentinin Koronavirusla mübarizə üzrə vahid Beynəlxalq Məlumat Mərkəzinin yaradılması və BMT Baş Məclisinin pandemiya əleyhinə qlobal videokonfrans keçirməsi təşəbbüsləri ilə çıxış etməsi çox əhəmiyyətlidir və dünyada lazımi dəstəyi alacağı şübhəsizdir".

Politoloq deyir ki, əslində Prezident Əliyevin bu təşəbbüsləri yeni səmərəli beynəlxalq əməkdaşlıq platformalarının yaradılması prosesinin başlanğıcıdır:"Dünyanın koronavirus üzərində labüd qələbəsində Azərbaycan xüsusi paya haqq etdiyini hamıya göstərdi. Qoşulmama Hərəkatı ölkələrinin videokonfransı Azərbaycanın pandemiya ilə mübarizə modelinə beynəlxalq marağın yeni mərhələsini açdı". Aydın Quliyev sonda onu da qeyd etdi ki, azı 120 ölkənin Azərbaycanın tətbiq etdiyi mübarizə modelinin müəyyən elementlərindən istifadə etməsi dünya miqyaslı əsaslı dəyişiklik və nəticələr doğura bilər.

***Baki-xeber.com***

# Azərbaycan Qoşulmama Hərəkatının strukturunu təkmilləşdirir - Vahid Məlumat Bazası...

**Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü keçirilib.**

Prezident İlham Əliyev Zirvə görüşündə açılış nitqi söyləyib. Ölkə başçısı deyib ki, COVID-19 qlobal pandemiyası bütün dünya dövlətlərinə mənfi təsir göstərir. Qarşılıqlı dəstək, özünə qapanmama və yalnız birgə səylərlə COVID-19-a qalib gələ bilərik. Prezident bunun Azərbaycanın təşəbbüsü ilə keçirilən 2-ci Zirvə Görüşü olduğunu qeyd edərək, ölkənin sədri olduğu Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının onun təşəbbüsü ilə aprelin 10-da COVID-19-a qarşı təşkil edilən Zirvə Görüşünü xatırladıb. Azərbaycan Zirvə Görüşündə bir sıra yeni təkliflərlə çıxış edib: "Təklif olunan Bəyannaməsində qeyd edildiyi kimi, Qoşulmama Hərəkatının yaradılacaq İşçi Qrupu üzv ölkələrin pandemiya ilə bağlı humanitar və tibbi ehtiyaclarını vahid məlumat bazasına daxil edəcəkdir. Həmin məlumatlar mümkün yardımların göstərilməsi üçün donor ölkələrə, beynəlxalq humanitar təşkilatlara təqdim ediləcəkdir". Qurumun strukturunda vahid məlumat bazasının yaradılması ideyasının nə kimi faydası ola bilər? Milli QHT Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan koronavirus pandemiyasına qarşı mübarizədə həm ölkə daxilində, həm də dünyada öz fəal rolunu oynayır:"Azərbaycan öz təşəbbüsləri, praktiki addımları ilə dünyada həmrəyliyin möhkəmlənməsinə, indiki mürəkkəb şəraitdə dövlətlər və xalqlar arasında əlaqələrin inkişafına, qlobal koronavirus pandemsiyası ilə mübarizədə bütün səylərin səfərbər olmasına öz töhfələrini verir. Bizim təşəbbüsümüzlə bu istiqamətdə iki böyük tədbir keçirilib. Hər iki tədbir eyni zamanda göstərir ki, ölkəmiz koronavirus pandemiyası ilə bağlı formalaşan yeni reallıqlara, yaranmış vəziyyətə çevik və adekvat reaksiya verir. Azərbaycanın bu istiqamətdə atdığı addımlar beynəlxalq səviyyədə dəstəklənməklə yanaşı, əksər ölkələrdə tətbiq olunur. Bir sözlə, Azərbaycan pandemiyaya qarşı mübarizə sahəsində nümunəvi ölkə kimi təqdir olunur. Qoşulmama Hərəkatının Təmas Qrupunun onlayn səviyyəli Zirvə görüşünün Bəyannaməsində əksini tapan 18 maddənin hər birində də birlik, həmrəylik çağırışı özünün aydın ifadəsini tapıb. Bəyannamədə xüsusi vurğulanır ki, bəşəriyyət üçün ciddi problem olan, birlik, həmrəylik və yenilənmiş çoxtərəfli əməkdaşlığa əsaslanmaqla qlobal reaksiya tələb edən COVID-19-un sürətlə yayılmasından ciddi narahatlıq ifadə edir, Birləşmiş Millətlər Təşkilatının üzv dövlətlərini milli, regional və beynəlxalq səviyyələrdə də bu bəlaya qarşı mübarizə aparmaq istiqamətində əməkdaşlıqlarını möhkəmləndirməyə çağırırıq. Qoşulmama Hərəkatının yaradılacaq İşçi Qrupu tərəfindən üzv ölkələrin pandemiya ilə bağlı humanitar və tibbi ehtiyaclarının vahid məlumat bazasına daxil edilməsinə dair təşəbbüsün isə ümumi işə böyük faydası dəyəcək. Çünki bu vahid bazada olan məlumatların köməyilə Hərəkatda olan ölkələr bir-birinə qarşılıqlı yardımlar edə biləcək. Hansısa ölkədə yaranan problemə dərhal müdaxilə ilə onun həllinə nail olunacaq. Bununla bir daha sübut olunur ki, Azərbaycan yalnız özünün pandemiyadan mühifizəsini düşünmür. Eyni zamanda bəşəriyyətin bu bəladan qorunması istiqamətində zəruri təkliflər irəli sürür. Vahid məlumat bazasının olması işlərin düzgün koordinasiya edilməsinə şərait yaradacaq".

***Rauf Zeyni:*** *"Vahid məlumat bazasının olması işlərin düzgün koordinasiya edilməsinə şərait yaradacaq"*




***Məhəmmədəli QƏRİBLİ***

# Koronavirus Azərbaycan və Ermənistan arasında daha bir mühüm fərqi üzə çıxardı - İrəvan xaricdəki vətəndaşlarına sahib çıxa bilmir...

**Koronavirus təhdidi baş qaldırdıqdan sonra, Azərbaycan da daxil olmaqla, bir sıra ölkələr xaricdəki vətəndaşlarının ölkəyə qayıdışını uğurla təmin etdi. Hətta Azərbaycanda bu xüsusda bütün xərclər dövlət tərəfindən qarşılandı. İndinin özündə də Azərbaycan xaricdə qalan vətəndaşlarının ya ölkəyə gəlişini təmin edir, ya da onlara müxtəlif formada yardımlar edir.**

Amma tamam fərqli vəziyyətin hökm sürdüyü ölkələr də var və Ermənistan indi buna əyani misal qismində göstərilir.

Məsələ burasındadır ki, Ermənistan indiki şəraitdə xaricdən, xüsusən Rusiyadan vətəndaşlarının ölkəyə gəlişinə qarşıdır. Ermənistan hökuməti yanında diaspor məsələləri üzrə ali komissar Zare Sinanyan da etiraf edir ki, ölkəsi repatriasiyaya hazır deyil. Onun sözlərinə görə, Ermənistanda hazırda xaricdən vətəndaşlarının kütləvi qayıdışına hansısa formada şərait yaratmaq imkanı yoxdur:"Gəlin, düz danışaq. Pandemiyaya görə repatriasiya baş versə, bizim bunu qarşılamağa hazırlığımız yoxdur. Üstəlik, insanlar Ermənistana qayıtsa, biz onları saxlaya biləcəyikmi? Əsas məsələ budur". Ali komissar deyib ki, repatriasiya istiqamətində iş aparmazdan əvvəl bir suala cavab vermək lazımdır:"Qayıdacaq insanları Ermənistan şərait və lazımi işlə təmin edə biləcək? Xeyr. Biz onları saxlaya bilmərik". Bu durumda Ermənistan mediası ölkədə bir aylıq gündəlik tələbat mallarının qaldığını yazır. Qeyd edilir ki, hökumət pandemiya dönəmində Ermənistan daxilində qalan insanların belə ehtiyacını qarşılamaqda çətinlik çəkir. Xaricdən gələnlər olsa, vəziyyət daha da pisləşəcək. Bu səbəbdən xaricdə olanların orada qalmasına Ermənistan hakimiyyəti ciddi cəhdlə səy göstərir. Erməni politoloq Andranik Tevanyan da hakimiyyətin vətəndaşlara laqeyd münasibət göstərdirdiyini vurğulayır:"Ermənistan hakimiyyəti hər şeyi tərsinə edir, qərarlar gecikmiş, məsuliyyətsiz və qeyri-kompetentdir. Profilaktik tədbirlər görmək lazım olanda heç nə etmədilər. Fövqəladə vəziyyət elan etmək lazım olanda insanları böyük qruplarla toplayaraq və infeksiyanın yayılmasına töhfə verərək "bəli" təbliğatı ilə məşğul idilər. İndi də Ermənistan hakimiyyəti əllərini ovuşdurur və vətəndaşı koronavirusla üz-üzə qoyur. Xaricdə qalan vətəndaşlar isə taleyin ümidinə buraxılıb".




Bu durumda rusiyalı iqtisadçı Aleksandr Razuvayev də bildirib ki, Rusiyadakı ermənilər geri qayıtsa, bu, ermənilər üçün çox ağır zərbə olacaq:"Karantin bir çox ölkələrə, o cümlədən Ermənistana ağır zərbə vurdu. Martın 16-dan etibarən Ermənistanda fövqəladə vəziyyət rejimi hökm sürür, iqtisadi fəaliyyət məhduddur, ictimai nəqliyyatın işi taksi və dəmir yolu istisna olmaqla qadağandır, təhsil və mədəniyyət müəssisələri bağlanıb. Ermənistanda, ikinci rübün yekunlarına görə, iqtisadi göstəricilərin kəskin azalması gözlənilir. Bunu ölkənin İqtisadiyyat naziri Tiqran Xaçatryanın simasında hakimiyyət açıq şəkildə etiraf edir. Ermənistanın bir çox vətəndaşı qazanc üçün Rusiyaya üz tuturdu, amma indi onların hamısı işsiz qalıb. Deməli, pul da yoxdur. Turizm sektorunun çökməsi də Ermənistan üçün böyük zərbə oldu. Ən nikbin qiymətləndirmələrə görə, Ermənistan turizmi ən tez iki ildən sonra bərpa olunacaq, yəni böhrandan əvvəlki göstəricilərə qayıdacaq". O əlavə edib ki, aprelin sonunda Ermənistan Mərkəzi Bankı yenidən maliyyələşdirmə dərəcəsini 5%-ə endirib. Əsas faiz dərəcəsi 0,25 faiz bəndi aşağı salınıb və indi misli görünməmiş dərəcədə aşağı səviyyədədir:"Amma çətin ki, bu, İrəvanın iqtisadiyyatına ciddi dəstək versin. Hazırda Ermənistanda iqtisadi vəziyyət Rusiya turistinin Ermənistana gedib-gəlməsindən, Ermənistan vətəndaşlarının Rusiyada əvvəlki iş yerlərinə qayıtmasından, "Qazprom" və digər Rusiya şirkətləri tərəfindən Ermənistana investisiya qoyuluşundan asılıdır". Ekspertin sözlərinə görə, bu baxımdan İrəvanın Moskvaya qarşı tutduğu yolu ağılsızlıq adlandırmaq lazımdır:"Moskva ilə qarşıdurma indiki durumda İrəvanı uçuruma apara bilər. Çünki Rusiya əmək bazarında erməniləri Qırğızıstan və Özbəkistandan olanlar əvəz edə bilər, Ermənistanın əvəzinə isə rusiyalı turistlər Türkiyə və ya Azərbaycanı seçə bilər". Belə vəziyyətdə, ekspertin fikrincə, Rusiyadakı ermənilərin geri qayıdışı həqiqətən də Ermənistan üçün böyük yük olacaq. Respublika Partiyasının sədr müavini Armen Aşotyan da vəziyyətin qəliz olduğunu bildirir. Onun sözlərinə görə, bir çox başqa hallarda olduğu kimi, bu dəfə də Paşinyan tarix dərslərini bilmir və başa düşmür ki, çörək olmadan yalnız səhnələrlə xalqı susdura bilməyəcək:

**"Hələ 22-ci ildə imperator Tiberius etiraf etmişdi ki, romalılara buğda paylamaq qanunu olmasa dövlət məhv olacaq. "Çörək yoxdur, amma siz yola gedin" variantı işləməyəcək və yalnız neronçu hakimiyyətin sonunu yaxınlaşdıracaq. Boş mədə səhnələri həzm etmir". Aşotyan qeyd edib ki, bu səbəbdən Paşinyan iqtidarı xaricdə olan Ermənistan vətəndaşlarını taleyin ümidinə buraxıb. Bu durumda hesab edilir ki, son iki ildə kriminal idarəetmə forması quran Nikol Paşinyanın pandemiya dövründən çıxmaq üçün konkret "yol xəritəsi"nin olmaması erməni xalqını aclıq və səfalətə məhkum edib. İndi istisna olunmur ki, yaxın tezlikdə əhalinin hakimiyyətə qarşı yeni qiyamı başlanacaq. Hər halda, hadisələr məhz bu istiqamətdə cərəyan edir.**

***Nahid SALAYEV***

# Qazaxıstanda kadr islahatlarından Ermənistanın çıxardığı isterik anti-Azərbaycan nəticələri...

**Məlum olduğu kimi, aprelin 30-da Xəzər dənizində Qazaxıstan Respublikasının Milli Təhlükəsizlik Komitəsinin Sərhəd Xidmətinin Sahil Mühafizəsinin əməkdaşları tərəfindən Azərbaycan Respublikası vətəndaşları saxlanıb. Sahil mühafizəçiləri Q.İbrahimov, E.Nuriyev, E.Əhmədov və Ş.Novruzovu saxlayan zaman silah tətbiq ediblər.**



## Elşən Manafov: *"Erməni mediasının gəldiyi qənaətin ciddi əsası yoxdur"*

Nəticədə 1 Azərbaycan vətəndaşı ölüb, 2-si yaralanıb. Bununla əlaqədar Qazaxıstanın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə dəvət edilib. Görüş zamanı Azərbaycan tərəfinin ciddi narahatlığı bildirilib və XİN-in notası səfirə təqdim edilib.

Bütün bunları sevinclə qarşılayan erməni mediası yazır ki, baş verənlər təsadüfi deyil. İddia edilir ki, Qazaxıstanda baş verən kadr islahatları o qənaətə gəlməyə əsas verir ki, bu ölkənin Azərbaycanla münasibətləri Nursultan Nazarbayevin prezidentliyi dövründəki kimi yaxın olmayacaq: "Hər halda, sərhədlərarası insident Nazarbayevin dövründə qurulmuş isti Qazaxıstan-Azərbaycan münasibətlərinə ziddir. Bu, münasibətlərin keçmişdə qalma meylini görmək mümkündür. Ancaq artıq rəsmi Nursultan Avrasiya İqtisadi İttifaqı məkanında Bakının dayağı olmaq niyyətində deyil".

O da məlumdur ki, Qazaxıstan Avrasiya məkanında Azərbaycanın maraqlarını hər zaman qoruyub və ölkəmizin xeyrinə addımlar atıb. Bu, müxtəlif formalarda özünü göstərib. Bütün bunlardan da ermənilər daim narahat olublar. Bütün hallarda, indiki məqamda erməni mediasının Qazaxıstandakı kadr islahatlarından çıxardığı isterik anti-Azərbaycan nəticələri nə dərəcədə əsaslıdır?

Məsələyə münasibət bildirən politoloq Elşən Manafovun sözlərinə görə, erməni tərəfinin bu cür qənaətə gəlməsinin ciddi əsası yoxdur: "Qazaxıstanda kimin hakimiyyətdə olmasından asılı olmayaraq, bu ölkənin Azərbaycanla münasibətlərində ciddi kardinal dəyişikliklərin olacağını istisna edirəm. Düşünürəm ki, geosiyasi, siyasi-iqtisadi, coğrafi, nəqliyyat-kommunikasiya faktorlarına görə Qazaxıstan heç bir vəchlə Azərbaycanla münasibətlərin gərginləşməsinə getməz. Azərbaycanla Qazaxıstanın çoxəsrlik tarixi əlaqələri var. Ortaq dilə və dinə malik olan xalqlardır. Qazaxıstanda 300 min nəfərdən çox azərbaycanlı yaşayır. Onlar Qazaxıstanda elmlə yanaşı, ticarət və digər sahələrdə fəaliyyət göstərirlər. Ölkənin ictimai-siyasi həyatında kifayət qədər fəal iştirak edirlər. Qazaxıstan Azərbaycanla 1992-ci ildən diplomatik münasibətlər qurub. Qazaxıstan ölkəmizlə münasibətlərə o qədər yüksək önəm verir ki, Aktauda bizim diplomatik konsulluğumuz fəaliyyət göstərir. Mərhum prezident Heydər Əliyevin dönəmində Qazaxıstanla ikitərəfli maraqlara uyğun çox isti münasibətlər qurulub. Sözügedən münasibətlər İlham Əliyev Prezident olandan sonra dinamik inkişaf edib. Hər iki tərəf münasibətlərin inkişafında maraqlıdır. Qazaxıstan Tengiz yatağından hasil edilən nefti Bakı-Tiflis-Ceyhan neft kəməri ilə Avropa bazarına çıxarır. İki ölkə MDB-də, İslam Əməkdaşlıq Təşkilatında və digər təşkilatlarda təmsil olunmaqla yanaşı, bir-birinin maraqlarını müdafiə edirlər. Qazaxıstan hər zaman Azərbaycanın ərazi bütövlüyünün bərpasının tərəfdarı olub.

*"...bu ölkənin Azərbaycanla münasibətlərində ciddi kardinal dəyişikliklərin olacağını istisna edirəm"*

Azərbaycan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında, Avrasiya İqtisadi İttifaqında təmsil olunmasa da, Qazaxıstan həmin qurumlarda ölkəmizin mənafeyini müdafiə edib. Ona görə də Xəzər dənizində məlum insidentə görə münasibətlərin kardinal şəkildə dəyişəcəyini istisna edirəm. Bir məqamı da nəzərə almaq lazımdır ki, Prezident Kasım-Jomart Tokayev Nursultan Nazarbayevin siyasi varisidir. Nazarbayevin bu gün də Qazaxıstanın dövlət idarəçiliyinə təsir imkanları böyükdür. Ona görə də erməni mediasının gəldiyi qənaətin ciddi əsası yoxdur. Sadəcə, bu, ermənilərin arzusudur".

***Vidadi ORDAHALLI***

# Ermənistan XİN-in "1991-94 və aprel 2016 bir daha olmayacaq" əminliyinin kökü - xalqı sakitləşdirmək, ya...

**Ermənistanın Xarici İşlər naziri Zöhrab Mnatsakanyan parlamentin xarici əlaqələr komissiyası qarşısında çıxış edib və bir daha Qarabağa dair danışıqlar prosesini əhəmiyyətsiz edən ifadələr işlədib. O deyib ki, rəsmi İrəvan heç vaxt "Dağlıq Qarabağ xalqının ekzistensial təhlükəsizliyinə" xələl gətirə biləcək addımlara getməyəcək.**



## İbrahim Rüstəmli: *"Bu dəfə 2016-cı ilin aprelindən fərqli olaraq, Azərbaycan Ordusu bütün əraziləri işğaldan azad edəcək"*

Bu dəfə Mnatsakanyan birbaşa ətraf rayonlar haqda danışmayıb, amma deyib ki, Ermənistan Qarabağa dair "birtərəfli güzəştlərə" getməyəcək.

Mnatsakanyana görə, Qarabağ mövzusunun daxili siyasət mövzusu kimi müzakirə olunması qaçılmazdır. Habelə o, Lavrovun bəyanatına əlavə şərh vermək istəmədiyini, artıq Rusiya və Ermənistan XİN mətbuat katiblərinin məsələ ilə bağlı şərhlərlə çıxış etdiyini də deyib. Ən qəribəsi odur ki, Mnatsakanyan 2016-cı ilin aprelinin bir daha təkrar olunmayacağını iddia edib: "Ən önəmli vəzifə ekzistensial (mövcudluq mənasında) təhlükəsizlikdir. 2016-cı ilin apreli bir daha təkrar olmayacaq, 1991-1994 də olmayacaq".

Ermənistan Xarici İşlər nazirinin bu çıxışı da məzmunca əvvəlkilərin davamıdır. Ancaq maraqlıdır, Mnatsakanyan nəyə görə bu dərəcədə əmindir ki, 2016-cı ilin apreli bir daha təkrarlanmayacaq? Onda bu əminlik haradandır? Bununla o, Ermənistan cəmiyyətini sakitləşdirmək istəyir, yoxsa ortada digər məsələ var?

Məsələyə münasibət bildirən ehtiyatda olan polkovnik-leytenant, hərbi ekspert İbrahim Rüstəmlinin sözlərinə görə, bu dəfə 2016-ci ilin aprelindən fərqli olaraq, Azərbaycan Ordusu bütün əraziləri işğaldan azad edəcək: "Müəyyən mənada Mnatsakanyan düz deyib. Çünki bu dəfə nə 1991-94 olacaq, nə də 2016-cı ilin apreli, onlardan da betər olacaq. Yeni Azərbaycan işğal altında olan ərazilərin hamısını azad edəcək. Nəzərə almaq lazımdır ki, ölkəmizdə bu istiqamətdə hərtərəfli işlər gedir. Ordumuzun döyüş qabiliyyəti artırılır, ən müasir silah və hərbi texnikalar alınır. Bütün bunların hamısı Azərbaycanın milli maraqlarından irəli gəlir. Azərbaycan həm də bununla beynəlxalq ictimaiyyətə göstərir ki, işğal olunmuş torpaqlarından heç vaxt imtina etməyəcək. Bütün bunlar Azərbaycanın hədəfə gedən yoludur. Ola bilsin ki, bəzi məqamlarda biz uğura nail ola bilməmişik. Ancaq bu cəhdlərin hər biri son nəticədə bizi o hədəfə yaxınlaşdıracaq hadisələrdir. Ermənistanda hakimiyyətdə olan bütün siyasi qüvvələr Qarabağ kartından daxili auditoriya üçün istifadə ediblər. Bunu siyasi məqsədlərə çeviriblər. Öz siyasi ambisiyalarını, mövqelərini qorumaqdan ötrü zaman-zaman Qarabağ kartından məharətlə istifadə ediblər. Paşinyan hakimiyyəti də bu metoddan istifadə edir. Mnatsakanyanın son açıqlamaları da buna hesablanıb. Bütün bunlara rəğmən, torpaqlar dinc yolla qaytarılmasa, müharibə qaçılmazdır. Çünki Azərbaycanın hədəfləri çox böyükdür. Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazi bütövlüyü ondan ötrü həyati əhəmiyyət kəsb edir. Bu iddiadan heç vaxt Azərbaycan əl çəkməyəcək. Sadəcə, bunun geci-tezi var. Azərbaycan Ordusu mütləq həlledici döyüşə atılacaq".

*"Ermənistanda hakimiyyətdə olan bütün siyasi qüvvələr Qarabağ kartından daxili auditoriya üçün istifadə ediblər"*

***Vidadi ORDAHALLI***

**"...120 üzv dövlətin yekdil dəstəyilə Azərbaycan üç il ərzində Qoşulmama Hərəkatına sədrlik edəcək. Bizə göstərilən böyük inam və etimada görə bir daha minnətdarlığımı bildirirəm. Sədrliyi öz üzərimizə götürərkən mən bəyan etdim ki, Azərbaycan beynəlxalq arenada üzv ölkələrin maraqlarının müdafiə edilməsi üçün əməli addımlar atacaq, həmrəyliyin gücləndirilməsini və qarşılıqlı dəstəyi rəhbər tutacaq.**

# Dünya Qoşulmama Hərəkatında Azərbaycanın sədrliyindən hələ çox yeni tədbirlərin şahidi olacaq - Prezidentin məzmunlu anonsu...

***Elçin Mirzəbəyli:** "Azərbaycan koronavirus pandemiyasının yayılmasının qarşısının alınması istiqamətində oturuşmuş dövlətçilik ənənələrinə sahib olan bir ölkə kimi davranaraq..."*




*"...Prezident İlham Əliyevin şəxsində dünyaya insanlığı ciddi çağırışlar qarşısında qoyan təhdidlərə qarşı birgə mübarizə aparmağın vacibliyi mesajlarını verdi"*

Azərbaycan Qoşulmama Hərəkatında sədrliyinə dair əhatəli Tədbirlər Planı hazırlamış və praktiki fəaliyyətə başlamışdır. Koronavirus pandemiyası dünyada vəziyyəti tamamilə dəyişmiş və nəticədə yeni reallıqlar meydana çıxmışdır. Azərbaycan yeni vəziyyətə çevik və adekvat reaksiya vermişdir. Azərbaycanın təşəbbüsü ilə keçirilən Qoşulmama Hərəkatının koronavirusa qarşı Təmas Qrupunun Zirvə görüşü bunu göstərir...".

Bu fikirləri Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda keçirilən Zirvə görüşündə Prezident İlham Əliyev bildirib.

Prezident videokonfransda dedi ki, Azərbaycan Qoşulmama Hərəkatında sədrliyinə dair praktik tədbirlər qrafiki hazırlayıb və həyata keçirir. Belə baslamışıqsa, üç ildən sonra Qoşulmama Hərəkatı hansı yüksək nəticələrə gedib çıxacaq?

Mövzunu şərh edən "Xalq cəbhəsi" qəzetinin baş readktoru, tanınmış siyasi icmalçı Elçin Mirzəbəyli "Bakı-Xəbər"ə bildirdi ki, qlobal həmrəyliyə töhfənin Azərbaycan nümunəsi bir örnəkdir: "Hər bir xalqın tarixi, keçdiyi yol onu təmsil edən fərdlərin dünyagörüşünə, həyat tərzinə ciddi təsir göstərir. Tarix toplumun dünənini ifadə etsə də, bu gününü və sabahına aparan yolun müəyyən edilməsində müstəsna rol oynayır. Bu gün birgəyaşayışımızı və içində yer aldığımız ictimai-siyasi münasibətlər sistemini təşkil edən dəyərlər, qan yaddaşımıza, dünyagörüşümüzə yazılmış kodekslər məhz tarix boyu kiçikdən böyüyə qədər yaşadığımız hadisələrin izləridir. Təbii ki, bu izlərin arasından xalqımızın həyatında baş verən qlobal hadisələrin, parçalanmaların, məğlubiyyətlərin əsas səbəblərindən biri kimi daha qabarıq görünənləri də var. Onlardan biri və bəlkə də birincisi XIX əsrin sonlarından, XX əsrin əvvəllərindən başlayaraq yaxın tariximizdən qızıl xətt kimi keçən milli birlik və həmrəylik ideyasıdır.

Təsadüfi deyil ki, Azərbaycanın dövlət müstəqilliyinin bərpasına aparan yolda ən önəmli mərhələlərdən biri məhz imperiyaların "parçala və hökm sür" siyasətinin nəticəsi olaraq, öz tarixi vətənlərində, lakin ayrı-ayrı dövlətlərin vətəndaşı olaraq yaşayan, dünyanın dörd bir yanına səpələnmiş azərbaycanlıların həmrəyliyinə və milli birliyinə nail olunması, yurddaşlarımız arasında mənəvi bağların qırılmaması, vahid azərbaycançılıq məfkurəsinin ölkədən-ölkəyə, qitədən-qitəyə yayılması üçün başladılan proses oldu.

Çağdaş Azərbaycan dövlətçiliyinin təməl ideoloji sütunlarından birinə çevrilən milli birlik, həmrəylik ideyası sonrakı mərhələdə daha geniş miqyasda özünü büruzə verdi, həm ortaq dil, mədəniyyət, tarix, həm də yaxın qonşuluq, regional əməkdaşlığın genişləndirilməsi müstəvisində çoxsaylı layihənin həyata keçirilməsinə zəmin yaratdı. Dünya azərbaycanlılarının bir araya gətirilməsinə xidmət edən proses daha qlobal, daha bəşəri ideyalarla zənginləşərək, Prezident İlham Əliyevin şəxsində dünyaya insanlığı ciddi çağırışlar qarşısında qoyan təhdidlərə qarşı birgə mübarizə aparmağın vacibliyi mesajlarını verdi, əməli addımlarla daşıdığı və elan etdiyi prinsiplərə sədaqətini nümayiş etdirdi".

E.Mirzəbəyli vurğuladı ki, COVİD-19 virusunun ölkə sərhədlərindən içəri ayaq açdığı ilk günlərdən dövlətimizin təkcə öz vətəndaşlarının deyil, bütün insanlığın taleyini düşünərək, yardımsevərliyini, humanizm prinsiplərinə sadiqliyini göz önünə sərgiləməsi, Azərbaycanda ardıcıl olaraq keçirilən beynəlxalq humanitar və mədəniyyətlərarası forumların, Bakının qlobal problemlərin müzakirə olunduğu bir məkana, dialoq platformasına çevrilməsinə zəmin yaradan tədbirlərin davamı kimi sözümüzlə əməlimizin bir-birini tamamladığı gerçəkliyini ortaya qoydu. "Eyni birlik və ittifaqlarda, hərbi-siyasi platformalarda təmsil olunan dövlətlərin koronavirus təhlükəsi qarşısında "mənim evim-mənim qalam" prinsipilə çıxış edərək, hətta ən yaxın qonşularına belə yardım göstərməkdən imtina etdiyi bir zamanda, Azərbaycan öncə dara düşən qonşusuna yardım əlini uzatdı, daha sonra isə Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon ABŞ dolları vəsait ayırmaqla qlobal məsuliyyət hissinin ərazisinə, əhalisinin sayına və iqtisadiyyatının həcminə görə özündən dəfələrlə böyük olan dövlətlərdən üstün olduğunu bir daha sübuta yetirdi.

Azərbaycanın koronavirusla mübarizə tədbirləri çərçivəsində irəli sürdüyü təşəbbüslərin də özünü daha öncə qeyd etdiyim ardıcıllıqla büruzə verməsi, diqqəti xüsusilə cəlb edir. Bu çox önəmli məqamdır və ilk növbədə, dövlətin öz siyasətində tarixi ənənələrə, prinsiplərinə, prioritetlərinə sadiqliyini nümayiş etdirir. Azərbaycan koronavirus pandemiyasının yayılmasının qarşısının alınması istiqamətində oturuşmuş dövlətçilik ənənələrinə sahib olan bir ölkə kimi davranaraq, ilk növbədə, ölkə daxilində və xaricində olan vətəndaşlarının, daha sonra yaxın qonşularının, həmçinin, ortaq dil, mədəniyyət və tarixi bağlılıqları olan ölkələrin, daha sonra isə daha geniş miqyasda - eyni platformada təmsil olunduğu ölkələrin qlobal təhlükəyə qarşı həmrəyliyinin təmin olunmasına xidmət edən təşəbbüslərdə bulundu. Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük" şüarı Azərbaycan sərhədlərini aşaraq, öncə Türk dünyasına, daha sonra isə bütün dünyaya birgə mübarizənin, həmrəyliyin bütün təhlükələrə qarşı yeganə xilas yolu olduğunu xatırlatdı.

Məhz bu baxımdan, Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında keçirilən Zirvə görüşü, şübhəsiz ki, Azərbaycanın öz praktiki addımlarıyla dünyada həmrəyliyin möhkəmlənməsinə, indiki mürəkkəb şəraitdə dövlətlər və xalqlar arasında təmasların yüksəlməsinə, qlobal pandemiya ilə mübarizədə bütün səylərin səfərbər olunmasına ciddi töhfələr verdiyini göstərir

Zaman keçəcək, koronavirus təhlükəsi geridə qalacaq, həyat yenidən öz əvvəlki ritminə qayıdacaq. Amma bəşəriyyət üçün bu ağır sınaq dövründə dövlətlərin və onların liderlərinin davranışları unudulmayacaq. O zaman Azərbaycanın və onun liderinin işıqlı obrazı daha aydın, daha qabarıq görünəcək!" - deyə müsahibimiz qeyd etdi.

***İradə SARIYEVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

## Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# Bakı İrəvanı növbəti dəfə yerinə oturtdu - Ermənistan XİN rəhbərinin leksikonundakı yumşalma...



**Cəbhə xəttində törədilən təxribatlar, həmişəki kimi, işğalçı Ermənistana baha başa gəlir. Hər halda, düşmən tərəfin verdiyi itkilər də bunu aydın şəkildə sübut edir. Elə bu günlərdə Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsində Ermənistan silahlı qüvvələrinin hərbçisi Taron Poqosyan ölüb. Poqosyanın minaya düşərək öldüyü iddia olunur.**

Yayılan məlumatlara əsasən, həyatını itirən erməni hərbi qulluqçusu rütbəcə mayordur. Qeyd olunduğu kimi, erməni tərəfi onun "mina partlayışından" həlak olduğunu bildirir, lakin həmin partlayan minanın piyadalar əleyhinə, yoxsa minaatan mərmisi olduğunu dəqiqləşdirmir. Məlumdur ki, son günlər Azərbaycan ordusu cəbhə boyu düşmənin fəallığına cavab olaraq minaatanlar tətbiq edir. Elə bu fonda ehtimal edilir ki, əslində, düşmən hərbi qulluqçusu Azərbaycan ordusunun minaatanlarından endirilən zərbə nəticəsində ölüb. Çünki təmas xətti boyu son günlər işğalçı qüvvələrin xüsusi fəallığı müşahidə olunur və düşmən 60 millimetrlik minaatanları işə salandan sonra Azərbaycan ordusu onların mövqelərinə daha iriçaplı minaatanlarla zərbələr endirib. Söhbət 82 millimetrlik minaatanlardan gedir. Elə erməni mayorun da bu zərbələrə tuş gəldiyi ehtimal edilir. Burada bir mühüm məqamı da xatırlatmaq lazım gəlir ki, ordumuzun yeni döyüş əməliyyatlarına hazırlaşmasına da start verilib. Belə ki, müdafiə naziri Zakir Həsənov bu günlərdə keçirdiyi xidməti müşavirədə düşmənin təmas xətti boyu xeyli fəallaşdığını bildirib və komandirlərə ordunu yeni döyüş əməliyyatlarına hazırlamağı əmr edib. Bunun ardınca Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, prezidentin köməkçisi, Prezidentin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyev, müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti ön xətdə yerləşən hərbi hissələrə baş çəkib. Burada da müdafiə naziri bölmələrin daim döyüşə hazır vəziyyətdə olması barədə müvafiq tapşırıqlar verib. Bu tapşırıqlar və cəbhədə ağır artilleriyanın işə salınması isə İrəvan üzündən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqların, belə demək olarsa, dalana dirənməsi fonunda baş verir.

Məlumdur ki, Rusiya xarici işlər naziri Sergey Lavrovun Qarabağa dair ətraf rayonların azad edilməsini də nəzərdə tutan mərhələli həll variantı üzrə danışıqların getdiyinə dair son bəyanatından sonra İrəvan bunu təkzib etmiş, bu istiqamətdə danışıqların olmadığını bildirmişdi. Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan Lavrovun bəyanatına cavab olaraq qeyd etmişdi ki, Dağlıq Qarabağ ətrafındakı işğal edilmiş rayonlar "təhlükəsizlik zolağına" aiddir və onların qaytarılmasından söhbət gedə bilməz. Rəsmi Bakı bu bəyanatı danışıqlardan imtina kimi dəyərləndirdi. Məhz bundan sonra cəbhədə vəziyyət gərginləşdi və ordumuza yeni döyüş əməliyyatlarına hazırlaşmaq barədə əmr verildi. Azərbaycan tərəfinini bu addımından sonra erməni tərəfinin, belə demək olarsa, danışıq tonu dərhal aşağı düşdü. Qarabağ danışıqları ilə bağlı parlamentin xarici əlaqələr komissiyasına çağırılan Mnatsakanyan bu dəfə mərhələli nizamlanmanın mümkünlüyünü dilə gətirdi. Düzdür, o iddia edib ki, rəsmi İrəvan heç vaxt "Dağlıq Qarabağ xalqının mövcudluq təhlükəsizliyinə" xələl gətirə biləcək addımlara getməyəcək:"Qarabağ məsələsinin mərhələli nizamlanma planı mümkündür, lakin bu, münaqişənin bütün tərəflərinin uyğun kompromislərini təmin etməlidir". Onun sözlərinə görə, tərəflərin öhdəliklərinin tarazlaşdırılacağı bir plan tərtib etmək vacibdir:"Tərəflərdən birinin öz mövqelərini zəiflətməsini, digərinin qoruyub saxlamasını nəzərdə tutan qərar qeyri-mümkündür". Mnatsakanyan qərarın mərhələli və ya paketli olmasının Ermənistan üçün heç bir əhəmiyyəti olmaması barədə fikirlə razıdır. Əsas odur ki, nizamlanma planının icrasında tərəflərin balansı saxlanılsın. Bunlar Mnatsakanyanın əvvəlki fikirlərindən bir qədər fərqlənir. Belə ki, elə ötən həftə o bildirirdi ki, danışıqlarda mərhələli həll planı yoxdur. Eləcə də Ermənistan tərəfi Qarabağın statusu və təhlükəsizliyi məsələsində güzəştə getməyəcək. Amma indi Mnatsakanyan mərhələli həllin mümkünlüyündən danışır. Düzdür, yenə təxribatçı mövqeyindən əl çəkmir, amma artıq mərhələli həllin mümkünlüyünü də dilə gətirir.

Artıq Azərbaycan Xarici İşlər Nazirliyi bu mövqeyə münasibət bildirib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva qeyd edib:"Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyimiz bəllidir və dəyişilməzdir". Mnatsakanyanın münaqişənin mərhələli həlli ilə bağlı parlament komissiyasında səsləndirdiyi fikirlərə münasibət bildirən XİN rəsmisi deyib:"Münaqişə BMT Nizamnaməsinin, Helsinki Yekun Aktının prinsiplərinə və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq həll edilməli, Ermənistanın silahlı qüvvələri Azərbaycanın işğal olunmuş bütün ərazilərindən çıxmalı və bu torpaqlardan didərgin salınmış məcburi köçkünlər öz evlərinə geri qayıtmalıdır. Bu məsələdə hər hansı bir əlavə şərhə yer yoxdur". Ekspertlər isə hesab edir ki, Ermənistanın mərhələli həllin mümkünlüyündən danışmasında Bakının son günlərdə xırda hərbi təzyiqi, eləcə də Rusiyanın işğalçının arxasından çəkilməsinin rolu az deyil. Elə politoloq Qabil Hüseynli də məsələyə məhz bu prizmadan yanaşır. Zöhrab Mnatsakanyanın Ermənistan parlamentinin xarici əlaqələr komissiyasında çıxışı zamanı verdiyi bəyanat haqqında danışarkən politoloq vurğulayıb ki, onun bəyanatı bundan öncəki bəyanatlardan fərqli idi:"Mnatsakanyan 10-15 gün öncə qeyd etmişdi ki, torpaqların geri qaytarılmasından söhbət belə gedə bilməz. Lakin indiki bəyanatında "Ermənistan üçün konfliktin həllinin mərhələli və ya paket olacağı vacib deyil. Əsas məsələ həll planının reallaşdırılmasında tərəflərin balansı saxlamasıdır" deyir. Mnatsakanyanın bu bəyanatını Ermənistanın danışıqlara hazır olması kimi qiymətləndirmək olar". Bununla belə, Q.Hüseynli bildirib ki, Ermənistan danışıqlar prosesində işğal faktını nəzərə almadan davranır:"Ermənistan təkliflərində səmimi deyil. Çünki Ermənistanın danışıqlar prosesində konkret mövqeyi işğalçı ilə işğala məruz qalan bir dövləti eyni mərtəbədən qiymətləndirməkdir. Halbuki, bu mümkün deyil. Azərbaycan işğala məruz qalan ölkədir. Bu, danışıqların ilkin, dayişməz faktıdır. Ermənistan dəfələrlə beynəlxalq hüquqdan danışıb, "xalqların öz müqəddəratını təyin etməsi"ni vurğulayır. Azərbaycan bu hüququ danmır və qəbul edir. Azərbaycan Prezidenti də hər dəfə bu məsələyə toxunaraq deyib ki, biz Ermənistan xalqının öz müqəddəratını təyin etməsinə hörmətlə yanaşırıq. Bu artıq bir dəfə olub və Ermənistan dövləti bu hüququn məntiqi yekunudur. Lakin Azərbaycan torpağında ikinci bir erməni dövləti qəbuledilməzdir. Ermənistan tərəfi bu qədər beynəlxalq hüquqdan danışdığı halda özü beynəlxalq hüququn şərtlərini kobudca pozmaqdadır. Mövcud münaqişə və Ermənistan tərəfinin mövqeyi bunun bariz sübutudur". Q.Hüseynlinin sözlərinə görə, Mnatsakanyanın bəyanatındakı ritorikaların yumşalmasında Rusiya faktoru var:"Son günlər Dağlıq Qarabağ münaqişəsi ətrafında diplomatik müzakirələrin intensivliyi müşahidə olunur. Xüsusilə də Rusiya XİN rəhbəri Lavrovun münaqişənin mərhələli həlli ilə bağlı mövqeyindən sonra Ermənistanın sərt ritorikası buna misal ola bilər. Lavrovun təklifindən sonra İrəvanın reaksiyası adekvat deyildi. Lakin hazırda biz Mnatsakanyanın daha mülayim fonda bəyanatının şahidi oluruq. Aydın məsələdir ki, Mnatsakanyanın danışıq tərzinin dəyişməsində Rusiya faktoru var. Çünki, əslində Lavrovun bu bəyanatı həm də Ermənistana bir ultimatum idi. Faktiki olaraq, Rusiya olmasa və iki ölkə təkbətək qalsa, bunun Ermənistan üçün nəticəsi ağır olacaq. Bunu Ermənistan da bilir. Düşünürəm, sadəcə, Rusiya yenidən bu reallığı Ermənistana xatırladıb ki, Mnatsakanyan bəyanatındakı sərt ritorikanı mülayimləşdirib".

Erməniyönümlü ekspert kimi tanınan rus siyasi analitik Modest Kolerov da indi Moskvanın İrəvana təzyiqlər tətbiq etdiyini və bunun günahının da elə İrəvanın özündə olduğunu bildirir: "Sergey Lavrovun qazın qiyməti və Qarabağ münaqişəsinin mərhələli həll variantı ətrafında səsləndirdiyi bəyanatlardan sonra erməni tərəfində müzakirələr səngimir. Artıq faktdır ki, Rusiyada Paşinyan hökumətinə, onun apardığı xarici və daxili siyasətə qarşı açıq narazılıq var. Ermənistan qazın qiyməti ilə bağlı məsələ qaldırıb və sual yaranır, niyə bu mərhələdə? Buna görə düşünürəm ki, sual Ermənistana ünvanlanıb.

Bu məsələni əvvəllər yox, indi yenidən nəzərdən keçirməyə qərar verən Ermənistana nə olub? Fikrimcə, sual Paşinyana ünvanlanıb. Paşinyanın bəyanatlarını izləyərək Rusiyada aşağıdakı fikirlərə diqqət yetirirlər: Paşinyan hakimiyyəti nə qərbyönümlü, nə də rusiyayönümlüdür. Nə ilə bağlı Paşinyana demək lazımdır ki, onun hökuməti rusiyayönümlü deyil? O nəyi inkar edir? KTMT-yə, yoxsa AİB-ə Ermənistanın üzvlüyünü? O nəyə qarşı mübarizə aparmağa qərar verib, nə baş verib? Yenidən sual bizə ünvanlanmayıb. Amma bu durumda Paşinyan Ermənistanı daha zəif duruma salır. Bu, Qarabağ məsələsində də özünü göstərəcək". Hesab edilir ki, hadisələr indiki templə davam edərsə, İrəvan yaxın tezlikdə işğal siyasətini yenidən nəzərdən keçirməli olacaq.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**66 saylı Biləsuvar seçki dairəsinin gənc deputatı Bəhruz Məhərrəmovdan oranın icra başçısının həbsinə münasibət öyrəniblər. Deputat deyib ki, media bu məsələlər ətrafında manipulyasiya etməməlidir.**

# Korrupsiya üstündə tutulmuş icra başçısının həbsinə Biləsuvar deputatından qəribə reaksiya və son düzəlişi...

*Bəhruz Məhərrəmov onun fikirlərinin təhrif olunduğunu iddia etdi*



Yıxılana balta vurmaq olmaz: "Fürsətdən istifadə edib, medianı bu məsələlər ətrafında manipulyasiya etməməyə çağırıram. Başqa şəyiə və fikirlərə əhəmiyyət verməyin. İkincisi, bildiyiniz kimi, sabiq icra başçısı barəsində Cinayət Məcəlləsinin 308, 311 və 179-cu maddələrinin müvafiq bəndləri üzrə cinayət işi açılıb, lakin məhkəmənin yekun hökmü yoxdur, təqsir məhkəmə qaydasında sübut olunana qədər ifadələrimizdə ehtiyatlı olaq. Və sonda, aydındır ki, pozuntu bir günün işi deyil, problemləri indiyədək yazmaq lazım idi, əks halda, necə deyərlər, daldan atılan daş topuğa dəyər. Yıxılanı baltalamaq bizə yaraşmaz".

Böyük ehtimalla gənc deputatımız Biləsuvarın icra başçısına qarşı qaldırılan maddələri sadalayaraq cəmiyyətə, xüsusilə də mətbuata "təqsirsizlik prezumpsiyası dərsi" keçməyə çalışmaqla, ixtisasca hüquqşünas olduğunu göstərmək istəyib. Ancaq bu cəhd alınmayıb. Çünki hər şey hamının gözü qarşısında baş verib. Bundan başqa, həbs edilən icra başçısının əməlləri, danışıqları lentə alınıb, əlində rüşvət tutulub. Adam müavininə "gəl bir 500 nəfərə koronavirusa görə pul yazaq, 200-nü götürək" deyir, sonra da DTX-nin kamerası qarşısında etiraf edərək, "bu əməllərimə görə xəcalət çəkirəm" söyləyir. Nəhayət, Prezident də bu həbslərə dəfələrlə münasibət bildirir və əlində rüşvət tutulan məmurları ən sərt ifadələrlə qınayır. Bir sözlə, nəzərə alsaq ki, məlum hadisə ölkədə böyük rezonans doğurub, ölkə başçısı tərəfindən onun əməli pislənib, o zaman deputatın buna belə yanaşması nə dərəcədə doğrudur?

Məsələyə münasibət bildirən AMİP-in sədr əvəzi Arzuxan Əlizadənin sözlərinə görə, baş verənlərlə ələqədar deputatın medianı, bir növ, borclu çıxarması doğru yanaşma deyil: "Aprelin 29-da Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyevin saxlanması ilə nəticələnən Dövlət Təhlükəsizliyi Xidmətinin xüsusi təyinatlı dəstəsinin keçirdiyi əməliyyat sıradan bir hadisə deyil. Onu da nəzərə alsaq ki, son 5 ay ərzində artıq sayca dörd rayon icra hakimiyyəti başçısı DTX-nın keçirdiyi əməliyyatla həbs edilib. Şübhəsiz ki, bunun cəmiyyətdə xüsusi rezonansa səbəb olması ilə ələqədar ölkə mediasının sözügedən hadisələri diqqət mərkəzində saxlaması da təbiidir. Buna görə medianı günahlandırmaq doğru yanaşma deyil. Bildiyim qədər, parlamentdə Biləsuvarı təmsil edən deputat Bəhruz Məhərrəmov ilk ali təhsilini jurnalist ixtisası üzrə alıb. Bu anlamda deputatın məsələyə yalnız hüquq müstəvisindən çıxış edərək, təqsirsizlik prezumpsiyası prizmasından yanaşmasını və mediaya yönəlik fikirlərini uğurlu hesab etmirəm. Digər tərəfdən, görünən odur ki, ölkədə yeni bir düzən formalaşmaqdadır. Ölkə Prezidenti siyasi iradə nümayiş etdirərək, korrupsiya və rüşvətin qarşısını almaq üçün bu prosesin davamlı olacağını bildirir. Belə olan halda, deputatın aparılan siyasətə dəstək verməkəvəzinə, bununla ələqədar sərgilədiyi mövqeyi, yumşaq desək, başadüşülən deyil".

Günün sonunda isə Milli Məclisin deputatı Bəhruz Məhərrəmov açıqlama yayaraq fikirlərinin təhrif olunduğunu bildirib. Deputatın açıqlamasında deyilir: "Azpolitika.az saytında adımdan gedən 04.05.2020-ci il tarixli yazı ilə ələqədar bildirirəm ki, qeyd olunan sayt Biləsuvar rayon İcra Hakimiyyətinin sabiq başçısı və hazırda həbsdə olan Mahir Quliyev barəsində fikrimi təhrif olunmuş və həqiqətə uyğun olmayan şəkildə təqdim etmişdir, qeyd olunan mövqe tərəfimdən qəbul edilmir və birmənalı şəkildə rədd edilir. Belə ki, mən ixtisasca hüquqşünas olaraq aparılan araşdırmanın nəticəsini gözləməyi tövsiyə etmişəm, çünki biz cənab Prezidentin rəhbərliyi altında hüquqi dövlətdə yaşayırıq və təqsirləndirilən şəxsin barəsində son qərar məhkəmə tərəfindən qəbul ediləcək.

Lakin bu o demək deyil ki, sabiq icra başçısı qeyd olunan əməlləri törətməyib. Mahir Quliyev ilk növbədə ona göstərilən etimadı doğrultmayıb, cənab Prezidentin korrupsiya və digər mənfi hallara qarşı mübarizə apardığı bir dövrdə bu əməlləri törədib və törədilməsinə şərait yaradıb.

**Buna görə də yerli sakinlər haqlı olaraq onun fəaliyyətindən ciddi narazı olub və bu barədə əsaslı müraciətlər edib. Bunun nəticəsidir ki, hazırda onun barəsində kifayət qədər təkzib olunmaz sübutlar olduğuna görə onun haqqında tamamilə doğru olaraq Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 179, 308 və 311-ci maddələri ilə cinayət işi istintaq edilir və barəsində əsaslı olaraq məhkəmə tərəfindən həbs qəti imkan tədbiri seçilib. Bütün günahkar şəxslər Azərbaycan məhkəməsi qarşısında cəzalarını alacaqlar".**

***Vidadi ORDAHALLI***

---

**Prezident İlham Əliyev Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevi videoformatda qəbul edərkən korrupsiyanın bələdiyyələrlə yerli icra hakimiyyətləri arasındakı münasibətlərə sirayət etdiyini bildirib:"Biz bunu dəfələrlə görmüşük.**

# Bələdiyyələr istisnasız olaraq başçılara aylıq haqqı nə üçün verir...

***İlqar Hüseynli:** "Yerli bələdiyyə torpağı satır, sənədi isə icra hakimiyyəti verir"*




Sadaladığım bu rayonlarda səhiyyə, təhsil, mədəniyyət sahəsində kütləvi şəkildə vətəndaşlardan, valideynlərdən, hər məktəb direktorundan pul yığılır. Rayon mərkəzi xəstəxanasının baş həkimindən icra hakimiyyətinə pul verilir. O da, öz növbəsində, bütün şöbələrdən hər ay haqq yığır. Bütün bələdiyyələr icra hakimiyyətinə aylıq pul verir. Biz bu hallara qarşı amansız mübarizə aparacağıq. Haqq da, xalq da bizim tərəfimizdədir. Bütün bu ifşaedici görüntülər hər bir Azərbaycan vətəndaşında haqlı olaraq ikrah hissi doğurur. Eyni zamanda, mənə ünvanlanan yüzlərlə, minlərlə məktubda bizim bu addımlarımıza böyük dəstək göstərilir. Ona görə prokurorluq orqanları bu işdə ön sıralarda olmalıdır və qanunun aliliyini təmin etməlidir".

Göründüyü kimi, ölkə başçısı bir-birilə struktur bağlılığı olmayan icra hakimiyyəti ilə bələdiyyələr arasında da qanunsuz münasibətlərin mövcudluğuna diqqəti yönəldib. Bələdiyyələr istisnasız olaraq başçılara aylıq haqqı nə üçün verir?

Sosial-strateji Tədqiqatlar və Analitik Araşdırmalar İctimai Birliyinin sədri İlqar Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ölkə başçısının səsləndirdiyi bu fikir həmin sahədə ürəkaçan mənzərənin olmadığından xəbər verir:"Çiddi problemdir. İcra başçısı açıq şəkildə bildirir ki, icra hakimiyyəti başçılarının böyük əksəriyyəti korrupsiya ilə məşğul olur. Çünki ortada dövlət başçısının səsləndirdiyi konkret fikir var. Bu o anlama gəlir ki, bütün icra strukturlarının fəaliyyətinə ciddi nəzarət lazımdır. Avtomatik olaraq belə məntiq ortaya çıxır ki, icra başçılarının böyük əksəriyyətini, bəlkə də hamısını yeniləmək lazımdır. Mən düşünürəm ki, vəziyyətdən çıxış yolu icra qurumları ilə bağlı sistemdə yeniləmənin aparılmasından keçir. Dəfələrlə bu məsələyə toxunmuşuq. Əslində yerlərdə olan kənd icra hakimiyyəti nümayəndələrinin saxlanmasına zərurət yoxdur. Kənd icra nümayəndələrinin işi də bələdiyyələrə verilməlidir. Onların səlahiyyətinin azaldılması bələdiyyələrin cəmiyyətdəki rolunu artıra bilər. Hətta tezliklə həmin qurumların ləğvi də həyata keçirilə bilər. Bələdiyyələrin yerli icra hakimiyyətlərinə pul ötürməsi məsələsində isə artıq söhbət birlikdə, mütəşəkkil formada həyata keçirilən cinayət əməlindən gedir. Məsələn, yerli bələdiyyə torpağı satır, sənədi isə icra hakimiyyəti verir. Bax belə hallarla bağlı məsələ rüşvət mexanizminə yol açır. Bələdiyyə seçkilərinin keçirilməsində şəffaflıq, nəzarət bir az da artırılmalıdır ki, orda təmsil olunanlar icra hakimiyyətlərinin istəyinə uyğun formalaşmasınlar. Bu da həmin bələdiyyələrin icra başçılarından asılılığına şərait yaradır.

**Buna görə də onlar məcbur olurlar ki, bələdiyyə büdcəsinə toplanan pullardan icraya ötürsünlər. İlkin olaraq bələdiyyələrin müstəqilliyi tanınmalıdır. Bundan sonra xalqın seçimi ilə gələn bələdiyyələr yalnız xalq qarşısında hesabat verəcəklər. Bələdiyyələrin rolu artsa, icra qurumlarından asılılığı azalsa, bələdiyyə seçkilərində iştiraka maraq da çoxalar. Nəticədə bələdiyyələrdə daha şəffaf adamlar təmsilçilik qazanacaq ki, onlar da icra başçıları ilə sövdələşməyə getməzlər".**

***Məhəmmədəli QƏRİBLİ***

# Son iki həftədə ilk dəfə yoluxma sayı sağalmaları üstələdi - karantin qaydaları yenidən sərtləşdirilə bilər... Operativ Qərargah son xəbərdarlığı etdi

*Nəsib Quliyev: "Yumşalma prosesi nə zaman özünü doğrultmasa, vətəndaşlar tərəfindən qaydalara riayət olunmasa, karantin rejiminin sərtləşdirilməsi həmişə gündəlikdə qalır"*

**Bildiyimiz kimi, bu ilin aprel ayının 27-də Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən ölkəmizdə mövcud olan sərt karantin rejiminin yumşaldılması prosesinə başlanıb. Yumşalma prosesi ilə əlaqədar olaraq mayın 4-dən isə Operativ Qərargahın qərarına əsasən, Bakı, Gəncə, Sumqayıt, Lənkəran və Abşeron rayonu istisna olmaqla, ölkəmizin digər rayon və şəhərlərində, Naxçıvan Muxtar Respublikasında SMS-icazə sistemi ləğv edilib və bir sıra sahələrin fəaliyyəti bərpa edilib.**

Dövlət tərəfindən həyata keçirilən antivirus tədbirləri nəticəsində son iki həftə ərzində sağalmaların sayı yoluxmaları bir neçə dəfə üstələmişdi. Yumşaldılma prosesindən sonra isə son iki həftədə ilk dəfə yoluxmanın sağalmaları üstələdiyinin şahidi oluruq.

Nazirlər Kabineti yanında Operativ Qərargahın yaydığı məlumata görə, Azərbaycanda koronavirusa 52 yeni yoluxma qeydə alınıb, 39 nəfər sağalıb və 1 nəfər vəfat edib.

Koronavirusa yoluxma hallarının bu virusdan müalicə olunaraq sağalanların sayını yenidən üstələməsi karantin qaydalarının yenidən sərtləşdirilməsinə səbəb ola bilər.

K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru, tibb elmləri doktoru, professor Nəsib Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, dövlət koronavirusla mübarizə çərçivəsində gərəyi nə var, hamısını yüksək səviyyədə həyata keçirir. "Birincisi, bəri başdan onu demək istəyirəm ki, aprel ayının 27-də və mayın 4-də xüsusi karantin rejimi ilə bağlı müəyyən yumşaldılmalar oldu. Amma siz fikir versəniz görərsiniz ki, həmin qərarda sanitar-epidemioloji, gigiyenik tədbirlərlə bağlı heç nə qüvvədən düşməyib, hər şey qüvvədədir. Yəni bu məsələdə heç bir yumlaşma yoxdur. İlk növbədə, yenə də sosial izolyasiyaya riayət olunması tələb edilir. İkincisi, "evdə qal" çağırışı da qüvvədədir. Bir sıra rayon və şəhərlər istisna olmaqla, respublikamızın Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda əhali sosial izolyasiya, "evdə qal" rejimindədir. Bu qaydalara riayət olunur. Digər tərəfdən, gigiyena ilə bağlı maskadan istifadə etmək məsələsi də qüvvədədir, hər kəs maskadan istifadə etməlidir. Burada məsələ gəlib çıxır insanların koronavirusa yanaşmasına, mövqeyinə. Bəli, burada çox təəssüf ki, kobud səhvə, vətəndaş məsuliyyətsizliyinə yol verənlər hələ də var. Hər bir vətəndaş bu problemin nə qədər ciddi olduğunu qəbul edərək, deyilən tələblərə əməl etməlidir. Əks təqdirdə sərtləşmə baş verə bilər. Çünki Nazirlər Kabineti yanında Operativ Qərargah da yumşalmanı elan edəndə bildirdi ki, yumşalma prosesi nə zaman özünü doğrultmasa, vətəndaşlar tərəfindən qaydalara riayət olunmasa, karantin rejiminin sərtləşdirilməsi həmişə gündəlikdə qalır. Çox təəssüf edirəm ki, son koronavirusa yoluxan 52 nəfər xəstənin 32-si Gəncədə aşkar olunub. Bu nə deməkdir? 52 xəstədən 32-nin Gəncədə aşkarlanması o deməkdir ki, orada vətəndaşlar tərəfindən karantin qaydalarına ciddi əməl olunmur. Orada bu problemə etinasızlıqlar, vətəndaş məsuliyyətsizliyi var. Bu da mövcud vəziyyətin yaranmasına səbəb olub. Yoluxanların sayının sağalanların sayından 13 nəfər çox olması bizə bir siqnaldır ki, aprelin 27-dən başlanan yumşalma prosesi yoluxmaya səbəb oldu. Çünki orta hesabla xəstəliyin gizlin dövrü 5 gün çəkir. Qısa bir vaxtda bu özünü göstərməyə başladı. Bu bizə bir daha onu deməyə əsas verir ki, hər kəs bu məsələlərə çox şüurlu şəkildə, vətəndaş məsuliyyəti ilə yanaşmalı, bütün qaydalara ciddi əməl etməlidir. Fikrimcə, ümumiyyətlə, ictimai nəqliyyata maskasız daxil olmağı ciddi şəkildə qadağan etmək lazımdır. Eləcə də digər xidmət müəssisələrinə, mağazalara, bərbərxanalara da heç kəsi maskasız buraxmaq olmaz".

N.Quliyevin sözlərinə görə, bütün vətəndaşların sanitar-gigiyenik qaydalara riayət etməsi, maska taxması vacibdir. O bildirdi ki, koronavirusun yayıldığı Çindən yayılan bütün video-görüntülərdə insanların hamısının qoruyucu maska ilə gəzdiyi müşahidə olunur. Bunun nəticəsində də Çində yoluxmanın sıfır həddinə gəlib çatdığını qeyd edən N.Quliyevin bildirdiyinə görə, bu gün koronavirus pandemiyasının qarşısının alınması üçün hələ ki, yeganə güclü silah insanların mövcud qorunma qaydalarına riayət etməsdir. "Çünki bu gün koronavirus pandemiyasının nə spesifik müalicə üsulu mövcuddur, nə də spesifik profilaktikası. Yəni nə bu xəstəliyin müalicəsi üçün spesifik dərman preparatı var, nə də peyvənd mövcuddur. Ona görə də bizim əlimizdə yeganə olan silah bu infeksiyadan deyilən qaydalarla qorunmaqdır. Yəni sosial izolyasiya, "evdə qal", şəxsi gigyenaya riayət etməklə bu infeksiyaya yoluxmaqdan qoruna bilərik. Ən azından, o zamana qədər ki, həm müalicədə istifadə olunan spesifik preparat yaradılsın, həm də xəstəlikdən etibarlı qorunmaq üçün peyvənd istehsal edilsin. Bu vaxta qədər məntiq bizə deyir ki, qorunmaqdan sonra ayrı üsul yoxdur. Əgər buna da məsuliyyətsiz yanaşırıqsa, onda məsələ başqa cür olacaq. Yəni dövlət pandemiya ilə mübarizə ilə bağlı çoxşaxəli tədbirlər həyata keçirib, böyük xərc çəkib, vətəndaş da dövlətin qoyduğu qaydalara riayət etmirsə və məsuliyyətsizliyə yol verirsə, onda yenidən karantin rejimi sərtləşdiriləcək. Vətəndaşlar elə davranış göstərməlidirlər ki, biz gəlib bu vəziyyətə çatmayaq.

Eyni zamanda, dünya birliyinə də biz sübut etməliyik ki, inkişaf etmiş, sivil bir xalqıq, bu kimi vəziyyətdə ən doğrusu nədir, onu etməyi bacarırıq. Dövlət nə lazımdırsa edir, insanlar da öz vəzifələrini şüurlu şəkildə dərk etməli, öz üzərlərinə düşən öhdəliyə əməl etməlidirlər. Biz vətəndaş olaraq bunu edə bilmiriksə, demək, bizim vətəndaş məsuliyyətimizdə problemlər var. Ona görə də bunları heç kim yadından çıxarmamalıdır".



*"Yoluxanların sayının sağalanların sayından 13 nəfər çox olması bizə bir siqnaldır ki..."*

*(Ardı 12-ci səh.)*

(Əvvəli 11-ci səh.)

**Koronavirusa yoluxanların sayı artır - səbəbi...**

"Son vaxtlar ökədə koronavirusa yeni yoluxanların sayı artır. Amma bu bizim üçün gözlənilməz deyildi". Bunu isə dünən Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında Operativ Qərargahın koronavirusla bağlı KİV nümayəndələri üçün keçirdiyi brifinqdə TƏBİB-in Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva deyib.

Y.Qarayeva əlavə edib ki, karantin qaydalarının yumşaldılması tədbirləri həyata keçirilən zaman yoluxmaların sayının artacağı əvvəlcədən məlum idi:"Yoluxmaların qarşısının alınması üçün ən əsası karantin tədbirlərinə əməl etməkdir. Bu gün, təəssüf ki, 76 yeni yoluxma qeydə alınıb, 28 nəfər sağalaraq evə göndərilib. İndiyədək 26 nəfər dünyasını dəyişib. Hazırda 526 nəfər xəstəxanada müalicə edilir. Onların 21-nin vəziyyəti ağır hesab olunur".

İ.Məmmədov isə deyib ki, koronavirusa yoluxma sayının artması karantin rejiminin yumşaldılması ilə bağlıdır. O, jurnalistlərin suallarını cavablandırarkən qeyd edib ki, ticarət mərkəzlərinin mayın 11-də açılacağı məlum deyil:"Rayonlarda ticarət mərkəzləri artıq açılıb. Həmin yerlərə təlimatlar təqdim edilib. 65 yaşdan yuxarı vətəndaşların evdən çıxmasına gəlincə isə, statistika pozitiv istiqamətdə olarsa, mayın 11-dən bu məsələyə baxıla bilər".

**Koronavirusla Mübarizəyə Dəstək Fonduna nə qədər vəsait toplanıb?**

İ.Məmmədov mayın 5-də Koronavirusla Mübarizəyə Dəstək Fondunun İctimai Nəzarət Şurasının ilk iclasının keçirildiyini də deyib. Onun sözlərinə görə, bu günə qədər fonda 113 milyon manatdan artıq vəsait toplanıb:"Bütün ianələrin hamısının xərclənəcəyi istiqamətlər barədə saytda məlumat veriləcək. Ən böyük məbləğdə ianə cənab Prezident tərəfindən olunub".

Onun sözlərinə görə, Koronavirusla Mübarizəyə Dəstək Fonduna yığılan vəsaitdən yalnız müəyyən edilmiş qaydalar çərçivəsində istifadə olunacaq. İ.Məmmədov vurğulayıb ki, fondun vəsaitlərinin xərclənməsi istiqamətləri və qaydaları Prezident İlham Əliyevin bununla bağlı müvafiq sərəncamında nəzərdə tutulub:"Həmin qaydalardan kənar heç bir istiqamətdə bu vəsaitdən istifadə edilə bilməz. Vəsaitlərdən yalnız müəyyən edilmiş qaydalar çərçivəsində istifadə olunacaq".




O, jurnalistlərin suallarını cavablandırarkən bildirib ki, Daxili İşlər Nazirliyi əməkdaşlarının sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı Koronavirusla Mübarizəyə Dəstək Fondunda vəsait nəzərdə tutulmayıb.

**Dəstək Fonduna toplanan vəsait üzərində ciddi nəzarət olacaq**

"Dünyanı bürüyən koronavirus pandemiyası ilə mübarizədə uğur əldə etmək sistemli tədbirlər tələb edir. Azərbaycanda görülən qabaqlayıcı tədbirlər, ölkəmizin iqtisadi gücü, səhiyyənin inkişafı koronavirusla mübarizədə müsbət nəticə əldə olunmasının səbəbləridir". Bunu isə Koronavirusla Mübarizəyə Dəstək Fondunun İctimai Nəzarət Şurasının üzvü, Milli Məclisin deputatı Ziyad Səmədzadə deyib.

Onun sözlərinə görə, Fondun yaradılması da pandemiya ilə mübarizə məqsədi daşıyır: "Fond kifayət qədər şəffaf fonddur. Fonda toplanan vəsait üzərində ciddi nəzarət olacaq. Hazırda dövlətin bir məqsədi var: az itkilərlə mübarizədən qalib ayrılmaq".

**İctimai nəqliyyatda maskalardan istifadə etməməyə görə cəza...**

İ.Məmmədov vətəndaşların ictimai nəqliyyatda maskalardan istifadə etməməsi ilə bağlı cərimələrin müzakirə olunduğunu da deyib. Onun sözlərinə görə, bununla bağlı müzakirələr başa çatandan sonra qərar veriləcək.

İ.Məmmədov vurğulayıb ki, ictimai nəqliyyatda maskalardan istifadə etməməklə bağlı cərimə tətbiq oluna bilər.

**Situasiya yenidən pisləşsə...**

Y.Qarayeva isə bildirib ki, situasiya yenidən pisləşməyə doğru getsə, ola bilər ki, regional olaraq, yaxud daha geniş miqyasda karantin rejiminin qaydaları yenidən sərtləşdirilsin. O, insanlara karantin tədbirlərinə əməl etmələri üçün çağırış da edib:"Biz yenidən xalqa müraciət edirik ki, karantin rejiminin daha da yumşaldılmasını istəyirik, sərtləşməsini istəmirik. Bizim üçün önəmli olan insanların sağlamlığıdır. Qaydalara əməl etməklə karantindən çıxmaq olar. Təəssüf ki, biz bu gün görürük, qaydalara heç kim riayət etmək istəmir. Rəqəmlər də onu göstərir ki, vəziyyət pisləməyə doğru gedir".

Y.Qarayeva əlavə edib ki, ölkədə yeni yoluxma halları həm Bakıda, həm də regionlarda müşahidə edilib. Onun sözlərinə görə, yumşaldılma tədbirlərinin tətbiq edildiyi ərazilərdə də yoluxma sayı artarsa, karantin tədbirləri yenidən sərtləşdirilə bilər.

**Metronun açılması məsələsi müzakirə olunur**

"Bakı metrosunun açılması məsələsi hər an müzakirə olunur". Bunu deyən İ.Məmmədovun sözlərinə görə, bu məsələ koronavirus infeksiyasının qarşısının alınma səviyyəsindən asılıdır: "Mayın 11-də vəziyyət yenidən müzakirə olunacaq. Xəstəliyin qarşısının alınmasında müsbət nəticə olarsa, metronun açılma vaxtı da bəlli olacaq. Yəni bu məsələ mayın 11-dən sonra aydın olacaq".

**Xaricdə olan vətəndaşlarımız yaxın vaxtlarda ölkəyə gətiriləcək**

İ.Məmmədov bildirib ki, xaricdə olan vətəndaşlarımız yaxın vaxtlarda xüsusi çarter reysləri ilə ölkəyə gətiriləcək. Onun sözlərinə görə, Azərbaycan vətəndaşlarının xarici ölkələrdən gətirilməsi məsələsi daim müzakirə olunur:"Lakin onların yerləşdirilməsi üçün müəyyən yerlər olmalıdır ki, karantində normal şəraitdə saxlansınlar. Bu istiqamətdə bəzi problemlər həmin ölkələrdəki karantin yerləri ilə də bağlıdır. Amma qərara alınıb ki, xaricdə olan vətəndaşlarımız xüsusi çarter reysləri ilə ölkəyə gətirilsin. Bu məsələ yaxın vaxtlarda həllini tapacaq".

*İradə SARIYEVA*

# Ünvanlı sosial yardımın verilmə müddəti iki ildən bir ilə endirilir

**Azərbaycanda aztəminatlı ailələr üçün nəzərdə tutulan ünvanlı dövlət sosial yardımının ödəniş müddəti azaldılır. "Trend"in məlumatına görə, bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial təminat siyasəti şöbəsinin müdiri Babək Hüseynov deyib.**




O deyib ki, hazırda ünvanlı dövlət sosial yardım iki il müddətinə təyin edilir:"Bizim təhlillər onu göstərir ki, yardım müddətinin iki il olması bir çox hallarda aztəminatlı ailələrdə asılılıq, ələbaxımlıq yaradır. Bunu aradan qaldırmaq üçün ünvanlı dövlət sosial yardımın alınma müddəti iki ildən bir ilə endirilir. Bu yardım təyin edildiyi ayın 1-dən etibarən 1 il müddətində təyin olunacaq".

B.Hüseynov bu məsələnin "Ünvanlı dövlət sosial yardım haqqında" qanuna təklif edilən yeni dəyişikliklər layihəsində öz əksini tapdığını söyləyib.

Nazirlik rəsmisi qeyd edib ki, layihə baxılmaq üçün artıq Milli Məclisə təqdim edilib.

B.Hüseynov təklif edilən dəyişikliklərin vətəndaşların sosial yardım almaq imkanlarını genişləndirdiyini deyib.

**Neft qiymətlərinin tənzimlənməsi fonunda atılan addımlar artıq öz nəticələrini verməkdədir. Hasilatin azalması istiqamətində OPEC və bəzi qeyri-OPEC ölkələrinin son qərarı artıq mayın əvvəlindən etibarən qiymətlərdə yüksəlişə rəvac verib. İndi prosesdə ABŞ-ın da aktiv iştirak etmək niyyəti və atdığı addımıar, ekspertlərin fikrincə, neft qiymətlərini daha dinamik şəkildə artıra bilər.**

# Neft qiymətləri Azərbaycanın istədiyi komfort həddə çatır...

Qeyd edək ki, artıq ABŞ-ın neft nəhəngləri hasilatı azaltmağı nəzərdə tutur. Belə ki, ABŞ-ın "Exxon Mobil", "Chevron" və "ConocoPhillips" şirkətləri iyun ayının sonuna qədər neft hasilatını gündəlik 660 min barrel azaltmağı planlaşdırır. Bu isə OPEC+ ölkələrinin qərarı fonunda neft qiymətlərini daha sürətlə artırır. Xatırladaq ki, mayın 1-dən OPEC və bəzi qeyri-OPEC ölkələri neft hasilatının məhdudlaşdırılması üzrə sazişin icrasına başlayıb. "Əməkdaşlıq Bəyannaməsi"nə əsasən, OPEC+ ölkələri sutkalıq neft istehsalını may-iyun aylarında 9,7 milyon barrel, iyulun 1-dən ilin sonuna kimi 7,7 milyon barrel, 2021-ci ilin yanvarından 2022-ci ilin aprelinədək isə 5,8 milyon barrel azaldacaq. Artıq qərarın icrası ilə bağlı olaraq birjalarda neftin qiyməti son 9 ay ərzində ən böyük sutkalıq artım tempini nümayiş etdirir. Neftin qiyməti hasilat məhdudiyyətlərinin tətbiqi fonunda artım dinamikasını davam etdirir. Tədarük bolluğuna dair ən pis ssenarinin geridə qaldığına dair bazarda yaranan optimist fikirlər də "qara qızıl"ın qiymətinin bahalaşmasına təsir göstərir. Belə ki, hazırda "Brent" markalı neftin bir barreli Londonun ICE birjasında 29,02 dollara, "Light" markalı neftin bir barreli isə Nyu-Yorkun NYMEX birjasında 22,37 dollara alıcı axtarır. Azərbaycanın dünya bazarına çıxararaq satdığı xam neftin qiyməti 0,6 dollar, yaxud 2,55% artıb. "Azeri Light" markalı neftin bir barrelinin qiyməti 24,11 dollar təşkil edir. Halbuki, Azərbaycan neftinin bir barrelinin qiyməti bu il aprelin 21-də minimuma enərək 15,81 dollar təşkil edirdi. Amma atılan addımlar fonunda ekspertlər bu ayın sonuna kimi neft qiymətlərinin 40 dollara çatmasını istisna etmir. ABŞ-ın da prosesdə fəal iştirakı buna təsir edir.

Bu arada bəlli olub ki, Birləşmiş Ştatlardakı aktiv neft-qaz qazma qurğularının sayı kəskin azalıb. "Baker Hughes" şirkəti bildirir ki, təkcə ötən hesabat həftəsində ABŞ-dakı aktiv neft və qaz qazma qurğularının sayı 57 ədəd azalaraq 408 olub. Keçən ilin eyni dövrü ilə müqayisədə ölkədəki aktiv qazma qurğularının sayı 582 ədəd geriləyib. Amma ABŞ neft qiymətini yüksəltmək üçün təkcə qeyd edilənlərlə kifayətlənmir. Yayılan məlumata görə, ABŞ rəsmi şəkildə OPEC+ razılaşmasına daxil olmasa da, bu istiqamətdə mühüm addım atmağa hazırlaşır. Belə ki, qeyri-rəsmi səviyyədə ABŞ-ın şist neftinin çox hissəsi çıxarılan Texas ştatı OPEC+ anlaşmasına daxil ola bilər. "Şist inqilabı"nın episentrinin neft şirkətlərini hasilatın həcmini azaltmağa məcbur edəcək taleyüklü qərar artıq bu günlərdə verilə bilər. Bu zaman hasilat həcminin qəbul edilən həddə saxlanması üçün sərt nəzarət qaydalarının tətbiqi də gündəmdədir. Məlumata görə, burada hər artıq barrelə görə 1000 dollar şəklində cərimə təklif edilir. Bu isə ən inadkar neft hasilatçısını da düşünməyə vadar edəcək.

Texasın əsas media orqanı olan "Houston Chronicle" ixtisar planının detalları və onun ətrafında baş verəcəklər barədə yazır:"Texasın neft-qaz sahəsini tənzimləyən Dəmiryolu Komissiyası ştatda neft hasilatını ayda 20 faiz azaltmağa imkan verəcək təklif ətrafında müzakirələr açıb. Komissiya 1970-ci illərdən hasilatın azaldılması barədə əmrlər verməyib, lakin koronavirus pandemiyasının yaratdığı qlobal xam neft artıqlığı ona gətirib ki, şist neft şirkətləri olan "Pioneer Natural Resources" və "Parsley Energy" agentlikdən bu hüququndan istifadə etməyi xahiş edib. 20 faizlik ixtisarın həcmi, ABŞ OPEC+ razılaşmasına qoşularsa, Texasın ixtisar edəcəyi neftin həcminə bərabərdir. Texaslı tənzimləyicilərin planına əsasən, "kiçik neft biznesi" kvotalaşmaqdan azad ediləcək, bütün ixtisarlar isə iri və orta şirkətlərin payına düşəcək. Faktiki olaraq, Amerika tərəfi üçün daha məntiqli çıxış yolu Səudiyyə Ərəbistanı, Rusiya və digər neft hasilatçılarına qoşulmaq olardı. Məsələ ondadır ki, hələ 2019-cu ildə amerikalı ekspertlər Səudiyyə Ərəbistanı və Rusiyanın "qara qızıl"ın qiymətini qaldıra və aşağı sala biləcək yeni neft alyansı yaratmasından ciddi narahat idilər. Üstəlik, həm OPEC ölkələri, həm də ittifaqa üzv olmayan dövlətlər alyansda iştirak edirdilər. 2020-ci ildə OPEC+ razılaşmasının pozulduğu bir vaxtda Amerikanın geosiyasət üzrə ekspertləri neftin qiymətinin düşməsinə, təbii ki, təəssüflənirdilər, lakin həm də keçən il onları qorxudan alyansın Amerikanın qlobal enerji siyasətini, həmçinin ABŞ-ın Yaxın Şərq diplomatiyasını artıq təhdid edə bilməyəcəyinə çox sevinirdilər. Yeni OPEC+ sövdələşməsi isə Amerikanın bu kabusunu yenidən gündəmə gətirir, hətta onu gücləndirir. O mənada ki, neft bazarında fəaliyyət koordinasiyası daha da genişlənib və indi hətta NATO ölkəsini də əhatə edir. Belə ki, "Financial Times"ın məlumatına görə, NATO ölkəsi olan Norveç neft hasilatını 13 faiz azaldacaq. Bu isə o deməkdir ki, Norveç hökuməti OPEC+ ölkələrinə verdiyi qeyri-rəsmi vədini yerinə yetirib.Bu səbəbdən ABŞ-ın da prosesdə iştirakı vacibdir".




Hesab edilir ki, ABŞ-ın istehsalın azalmasında fəal iştirakı neft qiymətlərini aktiv şəkildə yüksəldə bilər. Artıq qeyd olunduğu kimi, bu istiqamətdə addımlar ayın sonuna kimi qiymətləri 40 dollarlıq həddə, ilin ilk yarısının sonuna kimi 55-60 dollarlıq səviyyəyə çatdıra bilər. Bu isə Azərbaycan və digər hasilatçılar üçün də komfort qiymət sayılır. Hazırda proseslər elə bu istiqamətdə də inkişaf edir.

***Ramil QULİYEV***

# İctimai nəqliyyatda təsdiqlənmiş bu profilaktika qaydalarına hamı əməl etsə - ikinci dalğaya qarşı tutarlı üsul...

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) ictimai nəqliyyatda koronavirus infeksiyasının profilaktikasına dair metodiki göstərişlər siyahısını tərtib edib.**

*"...ikinci dalğa təhlükəsi ilə üz-üzə..."*

Sənəd ictimai nəqliyyat işçilərinin və sərnişinlərin sağlamlığının qorunması məqsədilə koronavirus (COVID-19) infeksiyasının hazırda olan elmi araşdırma faktlarına əsaslanaraq tərtib edilib.

Məlumdur ki, COVID-19 infeksiyası insanlar arasında birbaşa hava-damcı yolu ilə və ya dolayı yolla kontaminasiya olunmuş səthlərə toxunduqdan sonra əlləri ağız boşluğu, gözlərə, buruna və s. toxunduqda ötürülür.

Xəstəliyin profilaktik tədbirlərinə əl gigiyenası, sosial məsafənin saxlanması, gözlərə, ağız boşluğuna, buruna toxunulmaması və tənəffüs gigiyenası aid edilir. İctimai yerlərdə ortaq istifadə edilən səthlərin mütəmadi təmizlənməsi və dezinfeksiya edilməsi xəstəliyə yoluxma risqini azaldır.

Ekspertlər hesab edirlər ki, həmin qaydalara riayət olunarsa, koronavirusa qalib gəlmək mümkündür.

Sosial sahə üzrə ekspert İlqar Hüseynli bildirdi ki, ictimai nəqliyyatda gigiyenik qaydalara riayət olunmalıdır: "İşçilər qoruyucu vasitələr və dezinfeksiyaedici ləvazimatlarla təmin edilməlidirlər. Həmçinin, infeksiyanın yayılmasının profilaktikasına dair məlumatlar və maarifləndirici materiallar elektron tablolar, nəqliyyat vasitələrində quraşdırılmış planşetlər vasitəsilə sərnişinlərə çatdırılmalıdır. Bilet kassalarının, ödəmə terminallarının qarşısında, nəqliyyat vasitəsini gözləyərkən belə, tibbi maska mütləq istifadə olunmalıdır. Bununla yanaşı, insanlar təhlükəsizlik üçün sosial məsafə saxlamalıdırlar".

## **İlqar Hüseynli:** *"İctimai nəqliyyatda gigiyenik qaydalara riayət olunmalıdır"*



Həmsöhbətimiz onu da əlavə etdi ki, sərnişinlərlə sürücünün fiziki təmasının istisna edilməsi üçün nəqliyyat vasitələrində kabina yaradılmalıdır. Əgər kabina yoxdursa, şəffaf arakəsmə quraşdırılmalıdır.

Ekspert xüsusi olaraq vurğuladı ki, ictimai nəqliyyat vasitələrinin havası vaxtaşırı dəyişdirilməlidir. Avtobus və taksilər mütəmadi olaraq dezinfeksiya edilməlidir: "İctimai nəqliyyatda profilaktika qaydalarına riayət edilərsə, koronavirusun yayılmasının qarşısı alınar və ikinci dalğa təhlükəsi ilə üz-üzə qalmarıq".

***Günel CƏLİLOVA***

# Daha bir neçə rayonda icra nümayəndələrinə cinayət işi açıldı

**Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən elan edilən xüsusi karantin rejimi qaydalarının müxtəlif yollarla pozulması, bu dövrdə işləməyən şəxslər və aztəminatlı ailələrə ayrılmış ərzaq yardımlarının paylanmasında neqativ hallara, təəssüf ki, hələ də rast gəlinməkdədir.**



Baş Prokurorluğunun Mətbuat xidmətindən "Bakı-Xəbər"ə daxil olan xəbərə görə,

prokurorluq orqanları tərəfindən şəhər və rayon icra hakimiyyətləri ilə əlaqəli şəkildə qanunamüvafiq tədbirlər davam etdirilir. Lənkəran, Yevlax şəhər, Saatlı, Salyan, Daşkəsən və Hacıqabul rayon İcra Hakimiyyəti başçılarının inzibati ərazi nümayəndəliklərinin bəzi vəzifəli şəxslərinin bu qəbildən qanunazidd hallara yol vermələri barədə şəhər və rayon icra hakimiyyətlərindən rayon prokurorluqlarına daxil olmuş müraciətlərə baxılıb.

Araşdırmalarla Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının Nərimanabad qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Rafail Alışovun vəzifə səlahiyyətlərindən sui-istifadə edərək imkansız ailələrə göndərilmiş ərzaq yardımlarının paylanması zamanı neqativ hallara yol verib ərzaq paylarını özünün yaxın qohumlarına, o cümlədən, kəndin imkanlı şəxslərinə paylamasına əsaslı şübhələr müəyyən olunub.

Yevlax Şəhər İcra hakimiyyəti başçısının Qaramənmədli kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Mikayıl Əsədovun da eyni xarakterli qanun pozuntusuna yol verərək qulluq mövqeyindən sui-istifadə edib, imkansız ailələrə göndərilmiş ərzaq yardım qutularını açaraq müxtəlif sayda və növdə məhsulları götürüb ərzaq yardımlarını natamam paylamasına şübhələr üçün əsaslar müəyyən olunub.

Bundan başqa, Saatlı Rayon İcra Hakimiyyəti başçısının Saatlı şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi Nəsir Qədirov, Salyan Rayon İcra Hakimiyyəti başçısının Parça Xələc kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Sadiq Dəmirov və Daşkəsən Rayon İcra Hakimiyyəti başçısının Zağalı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Hətəm Əzizovun vəzifə saxtakarlığına yol verərək, xüsusi karantin rejimi qaydalarını pozub sərbəst hərəkət etmək istəyən şəxslərə qanunsuz olaraq arayışlar vermələrinə əsaslı şübhələr müəyyən olunub.

Hacıqabul Rayon İcra Hakimiyyəti başçısının Navahı qəsəbəsi inzibati ərazi dairəsi üzrə nümayəndəsi Namiq Baxşıyev və Qarasu kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi vəzifəsini icra edən İlknur Hüseynov tərəfindən də eyni xarakterli qanun pozuntusuna yol verilməsinə şübhələr üçün əsaslar müəyyən olunub.

Qeyd olunan şəxslər müvafiq rayon İcra hakimiyyəti başçılarının əmrləri ilə tutduqları vəzifədən azad ediliblər.

Toplanmış materiallar üzrə müvafiq rayon prokurorluqlarında Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işləri başlanıb.

Hazırda həmin işlər üzrə təqsirli şəxslərin dairəsinin tam müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**Azərbaycan Respublikasının Baş Prokurorluğu bu qəbildən olan qanunazidd hallarla üzləşən vətəndaşlara müraciət edərək "961" nömrəli "Çağrı Mərkəzi"nə məlumat verməlerini xahiş edir.**

# Azərbaycanın bölgələrində kazinolar? - Milli Məclisin deputatının təklifi necə qarşılanır...

## *Asif İbrahimov: "Qumarxanaların açılması çıxış yolu ola bilməz"*

**Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) sədri, millət vəkili Qüdrət Həsənquliyev son müsahibələrindən birində deyib ki, Azərbaycanı ofşor zonaya çevirmək lazımdır. Onun sözlərinə görə, regionlara turistlərin cəlbi üçün kazinoların açılmasına icazə verilməlidir:**

"Çox şükürlər olsun ki, hökumətin vaxtında qəbul etdiyi qərarlar nəticəsində biz bu bəladan az itkilərlə qurtulmaq üzrəyik. Vəziyyətin bizdən çox-çox pis olduğu ölkələrdə artıq karantin rejimi aradan qaldırılır. İqtisadiyyatımız karantin rejiminin davam etməsindən və neftin qiymətinin kəskin aşağı düşməsindən ciddi ziyan görür. Ona görə də düşünürəm ki, bu həftə də virusa yoluxanların sayında ciddi artım olmazsa, mayın 11-dən karantin rejimini aradan qaldırmaq lazımdır. Sadəcə ictimai yerlərdə və nəqliyyatda tibbi maskalardan istifadənin məcburi olması barədə qərar qəbul etmək olar. Dərslər isə iyulun sonuna qədər davam etməli və sentyabrın 1-i yeni dərs ili başlamalıdır. Bunun üçün məktəblərin kondisionerlərlə təchiz olunmasına indidən başlamaq lazımdır. Dərslər iyun, iyul aylarında davam etməsə belə, uşaqlar hər il may, sentyabr, oktyabr aylarında isti sinif otaqlarında əziyyət çəkirlər. Karantin rejimi həm də ona görə aradan qaldırılmalıdır ki, xüsusilə iqtisadi islahatlar geniş vüsət alsın. Saakaşvili bəyan edib ki, Ukrayna Avropanın ofşor ölkəsinə çevrilməlidir. Mən isə deyirəm ki, Azərbaycan dünyanın ofşor ölkəsi olmalıdır. Xarici investorlar üçün ölkəmizdə vergi cənnəti yaradılmalıdır. Turizmin inkişafı üçün təcili olaraq regionlarda kazinoların yaradılmasına icazə verilməlidir. Ən başlıcası isə, yubanmadan böyük özəlləşməyə və mülkiyyətin toxunulmazlığına təminat verən müstəqil məhkəmə hakimiyyətinin formalaşdırılmasına başlamaq lazımdır. Vaxt gedir".

Qüdrət Həsənquliyevin regionlarda kazinoların açılması ilə bağlı irəli sürdüyü təklifə mütəxəssislərin münasibəti necədir? Beynəlxalq idarəetmə üzrə ekspert, iqtisadçı Asif İbrahimov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu təklifi o qədər də uğurlu saymır:"Yaxşı olar ki, millət vəkilləri öz üzərlərinə düşən işlərlə ciddi məşğul olsunlar. Bilirsiniz qanunvericiliyin təkmilləşdirilməsi və yeni qanunların qəbulu ilə bağlı nə qədər iş görülməlidir? Mən də Qüdrət Həsənquliyevə demək istəyirəm ki, ölkədə iqtisadiyyatın inkişafına mane olan amillərdən biri məhz qanunvericilik bazasının lazımi şəkildə olmamasıdır. İqtisadiyyatın daha ciddi sahələrinin inkişafına ehtiyac var. Qumarxanaların açılması çıxış yolu ola bilməz. Tikinti sektorunun dirçəldilməsi lazımdır. Bu sektorun inkişafı ona yardımçı olan bir çox sahələrin də dirçəlişinə səbəb ola bilər. Tikinti materialları, aksesuarlar, mebel satışı artar. İşçi qüvvəsinə böyük ehtiyac yaranar. Eyni zamanda kənd təsərrüfatı məhsullarının istehsalı və satış bazarları genişləndirilməlidir. Dünyada ən böyük satış bazarı Avropa İttifaqının bazarıdır. Azərbaycan fermeri ora məhsul satmaqda çətinlik çəkir. Çünki beynəlxalq standartlarla bağlı direktivlərin tətbiqinə mövcud qanunvericilik imkan vermir. Deputatın qeyd etdiyi məsələ yalnız təklifdi. Bunun iqtidai əsaslandırılması yoxdur. Kazinoların inkişafı ilə bağlı daha çox Gürcüstan modelini təklif edirlər. Onlar ölkəyə gələn turist axınını stimullaşdırmaq üçün bu yolu seçdilər. Bu da otelçilik biznesini inkişaf etdirdi. Azərbaycanın buna ehtiyacı yoxdur.



Biz aqrar və neft ölkəsiyik. Biz lazım olan sahələri inkişaf etdirsək, kazinoların açılışına ehtiyacımız qalmaz. Cəmi 5 ay ərzində tikinti sektorunu daha da genişləndirmək olar. Məsələn, tikintiyə qoyulan qadağaları, ekspertiza qaydalarını asanlaşdırmaq lazımdır. Ölkədə istehsal olunmayan inşaat materiallarının istehsalına təkan verilməlidir. Bu istiqamətdə mütləq vergi güzəştləri tətbiq olunmalıdır. Onda Əhmədli qəsəbəsində mənzilin bir kvadratı 1200 manata deyil, 500 manata başa gələcək. İpoteka, kredit şərtlərinin yüngülləşməsi həmin mənzillərin satışını da tezləşdirəcək. Diqqəti bu sahələrə ayırmaq vacibdir".

***Məhəmmədəli QƏRİBLİ***

# İctimai iaşədə yeni məcburi profilaktika qaydalarının pozulması böyük təhlükələrə yol açacaq...

## *Aytəkin Kamranqızı: "İctimai iaşə sahəsində çalışan işçilərin şəxsi gigiyena qaydalarına əməl etməsi vacib amillərdən biridir"*

**Xüsusi karantin rejiminin aprelin 27-dən yumşaldılması ilə ölkədə bir çox müxtəlif ticarət və xidmət sahəsinin, o cümlədən, ofislərin və ictimai iaşə müəssisələrinin fəaliyyətinə icazə verilib. Hərçənd ki, Azərbaycanda sağalanların sayında artım olsa da, gündəlik koronavirusa yoluxma halları davam edir.**



Xüsusilə də Bakı, Sumqayıt, Gəncə və Lənkəran şəhərlərində və Abşeron rayonunda koronavirus ocaqları qalmaqdadır.

Bu baxımdan xüsusi karantin rejimində mərhələli yumşalmanın yenidən sərt tədbirləri aktuallaşdırmaması üçün müəyyən profilaktik tədbirlərin görülməsi vacibdir. Nəticədə bu məqsədlə koronavirus infeksiyasının (COVID-19) profilaktikasına aid metodiki vəsait hazırlanıb. Sənəd ictimai iaşə müəssisələrində çalışan əməkdaşlar və əhalinin sağlamlığının qorunması məqsədilə hazırda COVID-19 infeksiyasına dair aparılan elmi araşdırma faktlarına əsaslanaraq tərtib olunub.

Koronavirusun yayılmasının qarşısını almaq üçün ölkədə müəyyən profilaktik tədbirlər görülür. Əsas məqamlardan biri də ictimai iaşə müəssisələrində müəyyən olunmuş xüsusi qaydalara riayət etməkdir. Ekspertlər hesab edirlər ki, bu qaydalara riayət edilməzsə, koronavirusun ikinci dalğası yaşana bilər.

> *"...işçi heyət dəyişəkli təmiz iş geyimi ilə təmin olunmalıdır"*

Sosioloq Aytəkin Kamranqızı bildirdi ki, ictimai iaşə sahəsində çalışan işçilərin şəxsi gigiyena qaydalarına əməl etməsi vacib amillərdən biridir: "Təlimatda qeyd edildiyi kimi, işçi heyət dəyişəkli təmiz iş geyimi ilə təmin olunmalıdır. Həmçinin, gün ərzində bir çox insanla təmasda olması nəzərə alınaraq, maska, əlcək, dezinfeksiyaedici məhlul və lazımi hallarda digər gigiyenik vasitələrlə də təmin olunmalıdır. Bununla yanaşı, onlar şəxsi gigiyena qaydalarına riayət etməli, işə başlamazdan, qida məhsulları ilə təmasdan öncə, çiy qida məhsulunun emalı, qablaşdırılması və satışa hazırlanmasından, tullantılarla təmasdan, təmizlik işlərindən, sanitar qovşaqdan istifadədən, asqırma və öskürmədən, pulla təmasdan, siqaret çəkdikdən sonra işçilərin əllərini təmiz yuması və ya dezinfeksiyasına nəzarət edilməlidir. İnsanlar reallığı başa düşərək, karantin rejimi qaydalarına riayət etməlidirlər ki, koronavirusun ikinci dalğası bəşəriyyəti cənginə almasın".

***Günel CƏLİLOVA***

№ 72 (4203) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

6 MAY 2020-ci il

www.baki-xeber.com

# Uşaqlarda dəri ləkələri nədən yaranır?



**Uşaqlarda yaranan dəri problemlərindən biri də qəhvəyi ləkələrdir. Bu ləkələr nədən yaranır? "E-tibb.az" dermatoloq, uzman həkim Mehdi İskəndərlinin bununla bağlı məqaləsini təqdim edir:**

"Uşaqlarda qəhvəyi ləkələr anadangəlmə və sonradan qazanılmış ola bilər. Anadangəlmə qəhvəyi ləkələr uşaq doğulduqdan sonra aşkar edilir. Bütün qəhvə rəngli ləkələr doğuşdan sonra aşkar edilmir. Bəzi uşaqlarda kongenital qəhvəyi ləkələr iki yaşına qədər olan periodda istənilən vaxt meydana çıxa bilər. Dəridə anadangəlmə qəhvəyi ləkələr əksərən genetik pozuntular fonunda yaranır. Bunların müalicəsi və aradan qaldırılması mümkün olmur. Lakin dəridə kongenital qəhvəyi ləkələr ciddi sistem və sindromlu xəstəliklərdən xəbər verə bilər. Dərinin genodermatoz deyilən genetik xəstəlikləri bir çox halda dəridə qəhvəyi və ağ ləkələrlə başlaya bilər. Bu baxımdan valideynlər dəridə ağ və qəhvəyi ləkələr problemlərinə qarşı biganə olmamalı və zamanında dermatoloqa müraciət etməlidirlər. Uşaqlarda qəhvəyi ləkələr əksərən ciddi xəstəliklərin xəbərcisi olur. Belə ki, genetik dəri xəstəlikləri dəridə ləkələr və törəmələr şəklində başlasa da, uşaq böyüdükcə sistem xarakteri daşıyır və daxili orqan xəstəlikləri də törədir. Əsasən əqli gerilik, epilepsiya başda olmaqla, nevroloji problemlər, skolioz, kifoz, lordoz kimi sümük problemləri, endokrin sistem xəstəlikləri, immun çatışmazlığı və s. kimi problemlər yarana bilər. Belə ciddi xəstəliklərin həyati təhlükəli fəsadlarının qarşısını zamanında almaq üçün erkən diaqnoz vacibdir". Dermatoloq əlavə edib ki, uşaqlarda yaranan qəhvəyi ləkələrə görə valideynlər vaxtında peşəkar dermatoloqa müraciət etməlidirlər. Onun sözlərinə görə, uşaqlarda qəhvəyi ləkələr hər zaman genetik dəri problemləri ilə əlaqəli yaranmır. Bəzi hallarda dəridə qəhvəyi ləkələr qazanılmış olur və müalicələrə tabe olaraq aradan qalxır. Hətta bəzi qəhvəyi ləkələrin tam müalicəsi mümkündür. Dərinin qəhvəyi ləkələri bir çox halda infeksion mənşəli olur. Dermatoloq qeyd edib ki, bu cür qəhvəyi ləkələrin müalicəsi daha asandır. Lakin uşaqlarda dəri bərkiməsi ilə özünü göstərən qəhvəyi ləkələr də yarana bilər. Əsasən aşağı ətraflarda və bədəndə bu cür qəhvə rəngli ləkələr zamanla sərtləşir: "Dəridə bərkimə verən bu cür dəri xəstəliklərinin müalicəsi çətin olsa da, mümkünsüz deyil. Valideynlər qətiyyən ümidsiz olmamalıdırlar. Uşaqda qəhvəyi ləkə problemi çarəsiz deyil".



## "Face ID" maska altında da sifəti tanımağı öyrənəcək

**"Apple" şirkətinin mütəxəssisləri koronavirus infeksiyası yayıldığı üçün tibbi maskaların kütləvi istifadəsi ilə əlaqədar olaraq smartfonlarında "Face ID" insan sifətinin skanerinin parametrlərinə dəyişiklik edəcəklər.**

"Oxu.az" bildirir ki, "Face ID" skaneri cihazı blokdan çəld çıxarmağa, "iTunes Store", "App Store" və "iBooks Store" tətbiqlərində alış-veriş etməyə imkan verir. Lakin sifəti gizləyən sanitariya vasitələrindən istifadə etdikdə bu sistemdə nasazlıqlar yaranır. İOS əməliyyat sisteminin yeni versiyasında skaner istifadəçinin maska taxdığını müəyyən edəcək, bundan sonra cihaz avtomatik olaraq blokdan çıxarmaq üçün ənənəvi şifrənin daxil edilməsi tələb olunan rejimə keçəcək.

## "Bakcell"dən 20 GB + gecədən səhərə limitsiz İnternet!

**"Bakcell" öz abunəçilərinin böyük həcmdə internet trafikinə artan tələbatını ödəmək məqsədilə yeni internet paketini istifadəyə verib.**

Yeni "20 GB + gecədən səhərə Limitsiz İnternet" paketini cəmi 25 manata əldə edən Bakcell abunəçiləri 20 GB trafiklə yanaşı, gecə saat 01:00-dan səhər 10:00-dək tamamilə LİMİTSİZ internetdən yararlanacaqlar. Bundan əlavə, paketin aktivləşdirildiyi gündən başlayaraq 30 gün ərzində paketin əsas trafik həcmi (20 GB) bitsə belə, internet istifadəsi gecə və səhərlər limitsiz qalacaq.

"20 GB + gecədən səhərə Limitsiz İnternet" paketini *444*20# YES kodu vasitəsilə, eyni zamanda mobil nömrənin balansına və trafik qalığına daha rahat şəkildə nəzarət imkanı verən "Mənim Bakcellim" tətbiqetməsinin müvafiq bölməsinə daxil olaraq aktivləşdirmək mümkündür.

Bu unikal fürsət barədə daha ətraflı məlumatı "Mənim Bakcellim" tətbiqetməsində və ya https://www.bakcell.com/az/unlimited-nights-morning-internet-bundlesəhifəsində əldə etmək olar.

"Bakcell" şirkəti məhsul və xidmətlərinin keyfiyyətini müntəzəm qaydada artırmaqla abunəçilərinə daha yaxşı müştəri təcrübəsi təqdim edəcək. Bunun üçün Azərbaycanın ən sürətli mobil şəbəkəsinin bütün texniki imkanları mövcuddur.

## Elan

Bədəlov Kənan Xəzri oğluna aid əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

17.10.1996-cı il təvəllüdlü İsmayılova Aydən Söhbət qızına məxsus doğum haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Bütün gün ərzində müsbət tendensiyaların təsiri güclü olacaq, bundan maksimum yararlanmağa çalışın. Səhər çağı inad, şöhrətpərəstlik kimi xüsusiyyətlər özünü daha qabarıq büruzə verəcək.

**Buğa** - Məlahət və cazibəniz "hakimiyyəti ələ alacaq". Buz kimi ürəkləri belə əritməyə qadir olacaqsınız. Əgər istəsəniz, keçmiş əlaqənizi bərpa edə bilərsiniz, ikinci dəfə birincidən daha yaxşı alınacaq.

**Əkizlər** - Günün əvvəlində çətinliklər yarana bilər. Ətrafınızda baş verən hər şeyə çox sərt reaksiya verir, əhəmiyyətsiz məsələləri şişirdirsiniz. Yaxın qohumlarınızla fikir ayrılığı, pul və ya əmlak üstündə mübahisələr mümkündür.

**Xərçəng** - Müsbət tendensiyaların təsir gücü artmağa başlayır. Xoş xəbərlər, maraqlı təkliflər alacaqsınız. İmprovizədən qorxmayın. Yeni ideyalar yaxşıdırlar, onları vaxtında tətbiq etməyə çalışın.

**Şir** - Bu gün dəfələrlə təkid etməli olacaqsınız. İnsanlara nəinki hərtərəfli yaxşı insan, həmçinin güclü şəxsiyyət olduğunuzu nümayiş etdirəcəksiniz. Öz bildiyiniz kimi hərəkət etmək elə də asan deyil, amma bunsuz can atdığınız nəticələri əldə etmək mümkün deyil.

**Qız** - İşgüzar və enerjilisiniz. Ailədə münaqişə, yaşlı qohumlarınızla fikir ayrılığı mümkündür. Uşaqlarla ünsiyyətdə bir az səbrli olun, onlar sizin məzəmmətlərinizə çox sərt reaksiya verə bilərlər.

**Tərəzi** - Ciddi maliyyə problemləriniz ola bilər. Ailə büdcəsini, əmlak bölüşdürülməsini bu gün müzakirə etməsəniz, məsləhətdir. Köçmək üçün də münasib gün deyil. Səhərçağı xoşagəlməz xəbər ala bilərsiniz.

**Əqrəb** - Dəyər verdiyiniz insanlarla, dostlarınızla birlikdə istirahət etməyə çalışın. Romantik görüşlər üçün də xoş axşamdır. Başqalarının təklif etdiyi, amma xoşunuza gəlməyən əyləncələrdən isə uzaq qaçın, belədə, bir çox problemdən yaxa qurtara bilərsiniz.

**Oxatan** - Sizin peyda olduğunuz bütün yerlərdə çox gözəl, mehriban ab-hava yaranır. Ancaq bəzi qərarları verərkən çox tələsirsiniz. Bura xüsusilə pul və qiymətli əşyalarla bağlı məsələlər aiddir.

**Oğlaq** - Maraqlandığınız adamlarla ünsiyyət qurmaq istəyirsinizsə, axşama doğru onları başınıza toplayın. Həm evinizdə qonaq qəbul edə, həm də özünüz kimisə evinə qonaq getməklə sevindirə bilərsiniz.

**Dolça** - Sizin nikbinliyiniz əla zireh və əvəzolunmaz silahınızdır. Onun köməyilə istənilən maneəni dəf edə bilərsiniz. Bu gün nəinki işgüzar, hətta demək olar ki, döyüşkən ruha köklənmisiniz.

**Balıqlar** - Yaxşı gündür. Çoxdankı arzularınız yerinə yetir, mümkün olmayan hər şey reallaşır. Səhvlərinizi asanlıqla aradan qaldırır, yaxşılığa doğru dəyişikliklərin təşəbbüskarı olursunuz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Qadınların damarları kişilərə nisbətən tez qocalır

**Qadınlarda qan-damar sistemi daha tez zədələnib sıradan çıxır, nəinki kişilərdə. Ona görə də qadınlarda ürək-damar problemləri daha erkən yaşda başlayır və gedişatı kişilərdən fərqlənir.**

Bunu Harvard Universitetinin alimləri "Jama cardiology" dərgisində dərc etdirdikləri elmi məqalədə qeyd ediblər. "Medicina.az" bildirir ki, alimlər 33 min insanın təzyiq göstəriciləri 43 il ərzində tədqiq ediblər. Onların 54%-i qadınlar təşkil edib. İştirakçılar 12 -95 yaşarası olub. Analizlər göstərib ki, qadınların iri arteriyalarından tutmuş, xırda kapilyarlara kimi daha erkən yaşda başlayır və kişilərdən sürətli gedir. Məsələn, yüksək təzyiq qadınlarda 28-30 yaşından başladıqda, artıq 35 yaşına doğru ürək problemləri yaranır. Eləcə də təzyiqin qəfil yüksəlməsi zamanı infarkt və insult risqi də qadınlarda çoxdur və bu zaman qadınları xilas etmək daha çətindir. 50 yaşından sonra qadınlarda hipertoniya risqi həm də menopauza ilə əlaqədar olur. Ona görə də alimlər həyəcan təbili çalaraq, qadınların qan-damar sisteminin qorunması və müalicəsinin önə çəkilməsini bildirirlər.

*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.